QARABAĞ AZƏRBAYCANDIR!

## Bir çox məqamlara aydınlıq gətirən SUALLAR



6

Səs
№ 239 (6680) 28 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

## 2022-ci il - Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr ili



3

# İranı "qaşındıran" nədir?

### Başıəmmaməlilərin hərbi xuntaçısı yenidən və dolayı vasitələrlə məhz Azərbaycana tərəf eyham vurub




14

## "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyətin açılışı olub



5

## "2022-ci il Azərbaycan mediası üçün yaddaqalan il oldu"



11

## Yeni il kimin bayramıdır?



15

## Yapon professor: "Ermənilərin Qarabağdakı faydalı qazıntıları talan etməsi dünya üçün təhlükədir"



5

## Kiber hücumların qarşısı necə alınmalıdır?



16

# Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra infrastruktur obyektlərinin inşası tamamlanıb

**Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra tikililər, avtomobil yolları və digər infrastruktur işləri tamamlanıb. Dünən Prezident İlham Əliyev Kvartalda görülən işlərlə tanış olub, Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına Kvartalda görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən müxtəlif ölçülü küçələrin salınması və yolaltı kommunikasiya infrastruktur işləri tamamlanıb. Bunlar, əsasən Qarabağ Atları, 3-cü Şərq, 6-cı Park küçələri və bir sıra digər küçələrdir.

Bununla da artıq Ağ Şəhərin Xəqani Rüstəmov küçəsindən əlavə daha iki küçəsinin Babək prospektinə rahat giriş və çıxışı təmin ediləcəkdir. Prospekt boyunca magistral su xətti, yüksək və orta təzyiqli qaz xətləri, elektrik magistral xətlər köçürülərək Ağ Şəhər layihəsinə uyğunluğu təmin edilib.

Tamamlama işləri çərçivəsində arabalar



*Prezident İlham Əliyev görülən işlərlə tanış olub, Qarabağ Atları Kompleksinin təməlini qoyub*





üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu tumbalar, Daxili İşlər Nazirliyinin ”Təhlükəsiz şəhər” xidməti tərəfindən videokameralar quraşdırılıb, ”Azərsu” və ”Azərişıq” Açıq Səhmdar cəmiyyətləri, ”Azəriqaz” İstehsalat birliyi tərəfindən yeraltı kommunikasiyalar, ”Delta Telecom” MMC tərəfindən isə İT kanal sistemləri çəkilib.

Mərkəzi Park Kvartalı 2017-ci ildə təhvil verilmiş Paris evlərindən əlavə, 36, 20 və 8 mərtəbəli yaşayış binaları, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və ictimai iaşə obyektləri, orta məktəb, ofis və dövlət inzibati binaları, bir sıra park və yaşıllıq zonalarından ibarətdir.

Bildirildi ki, Qarabağ Atları küçəsinin mərkəzində səkkizmərtəbəli, müasir fasadlı yaşayış binalarının əhatəsində Qarabağ Atları Meydanı yerləşir. Prezident İlham Əliyev Qarabağ Atları Meydanına gələrək burada ağac əkdi. Sonra dövlətimizin başçısı Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoydu.

Meydanla tanışlıq zamanı qeyd olundu ki, ətrafdakı binalarda mağazaların, kafe və restoranların, digər ictimai iaşə obyektlərinin açılması nəzərdə tutulur. Burada həmişəyaşıl ağaclar və kollardan ibarət landşaft salınıb. Meydanın mərkəzində Qarabağ atlarının heykəl kompleksi quraşdırılıb. Qarabağ Atları heykəl kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleksin hazırlanmasına amerikalı heykəltəraş Robert Sammers cəlb olunub. Qeyd edək ki, heykəltaraş Dallas şəhərində yerləşən ”Mal-qara sürülməsi”, Kaliforniya hava limanında ”Con Ueyn” və digər əsərləri ilə dünyada məşhurdur.

Qarabağ Atları küçəsində avtomobillərin və piyadaların təhlükəsiz hərəkəti üçün hər cür şərait yaradılıb. Burada Ağ Şəhər layihəsinə uyğun olaraq piyadalar üçün panduslar və yerüstü keçidlər salınıb, eni 6-8 metr olan səkilərdə xüsusi dizaynlı daş düzümündə küçənin adı qeyd edilib, yaşıllıq zolaqları salınıb, avtomobil və velosiped dayanacaqları yaradılıb, piyadaların istiqamətləndirilməsi üçün yol göstəriciləri və xəritələr, tullantı qutuları, oturacaqlar quraşdırılıb. Küçə şimalda Babək prospektinə, cənubda isə Mərkəzi Parka birləşir. Prezident İlham Əliyev avtobusla Bakı Ağ Şəhər Mərkəzi Park Kvartalını gəzdi.




Dövlətimizin başçısına məlumat verildi ki, Meydanın ətrafındakı yaşayış binalarının birinin fasadında keramikadan xüsusi hazırlanmış pano quraşdırılıb. Həmçinin burada dördmərtəbəli hipermarket binasının, Babək prospektində müasir dizaynlı çoxfunksiyalı binanın və yaşıllaşdırılmış avtodayanacağın inşası başa çatıb. Bu kommersiya binaları Babək prospekti boyunca yerləşən satış və ticarət məkanlarının davamı olacaq.

Daha sonra dövlətimizin başçısına Bakı Ağ Şəhər layihəsi çərçivəsində növbəti illərdə görüləcək işlər barədə də məlumat verildi. Ağ Şəhərin təhvil verilmiş kvartallarında artıq minlərlə sakin keyfiyyətli və müasir şəhər mühitində yaşayır. Burada layihələndirilən və tikilmiş binalar, parklar və digər ictimai yerlər Bakı şəhərinin gözəl memarlıq simasına öz töhfəsini verməkdədir.









# 2022-ci il - Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr ili

**Bir neçə gündən sonra həyatımızın bütün sahələri ilə zəngin olan 2022-ci ilə vida söyləyəcəyik Təqvimizə yola salacağımız il yaddaqalan hadisələrlə həkk olundu. Biri digərini əvəzləyən hadisələr Azərbaycan ictimai-siyasi mədəni tarixinə silinməz iz saldı. Bu gün yarandığı zamandan etibarən, xalqımızın mənəvi sərvətinin və milli mədəniyyətinin təbliği və inkişafı istiqamətində mühüm işlər görən, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin müdrikliyə əsaslanan həyat fəlsəfəsini, xalqa xidmət missiyasının əbədiyaşarlığını təmin edən mühüm ideoloji-humanitar mərkəz kimi fəaliyyət göstərən Heydər Əliyev Fondunun il ərizində gördüyü işlər vərəqləyəcəyik.**



Əhəmiyyəti ilə diqqətə çəkən hər bir görülən iş xalqın böyük məhəbbətini və etimadını qazanan Azərbaycanın Birinci vitse-prezident, Heydər Əliyev Fodunun sədri Mehriban xanım Əliyevanın Ulu Öndər Heydər Əliyev ucalığını başlıca meyar götürməsindən, eləcə də Azərbaycanın birinci xanımının zəngin mənəvi və intellektual potensialından qaynaqlanır. Məhz bu cür mükəmməl fəaliyyətin məntiqi nəticəsi olaraq indi Heydər Əliyev Fondunun gördüyü işlərin sorağı dünyanın sayılıb-seçilən ölkələrindən, ən mötəbər beynəlxalq qurumların tribunalarından gəlir. Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi, mədəni həyatında gördüyü işlərin bir illik məsafəsinə diqqət yetirsək nə qədər möhtəşəm hadisələrin reallaşdığının bir daha şahidinə çevrilərik. Belə ki, 2022-ci ildə Azərbaycanda baş verən sıçrayışlarda, onun simasının gündən-günə dəyişməsində, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasında Mehriban xanım Əliyevanın fəaliyyəti, genişmiqyaslı layihələrinin müstəsna yeri və əhəmiyyəti var. Onun həyata keçirdiyi layihələr yerli əhəmiyyətli sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək məqsədi daşıyır. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım edir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək istiqamətində Fondun böyük mahiyyət daşıyan addımları Mehriban xanım Əliyevanın humanizm prinsiplərinə söykənir.







## “YENİLƏŞƏN AZƏRBAYCANA YENİ MƏKTƏB”

Müasir dövrümüzdə ziyalılığın ali zirvəsində olan ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın qısa bir zamanda Azərbaycan üçün gördüyü işlər bir əsrin tarixi qədər möhtəşəm və alidir. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. Mehriban xanım Əliyevanın ”Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı əsasında ötən illərdə olduğu kimi, 2022-ci ildə də təhsil sahəsində mövcud olan problemlərin həllinə nail olundu. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla proqram çərçivəsində müasir standartlara cavab verən məktəb binaları inşa olunaraq yenidən quruldu. Belə ki, müəssisələrin yüksək səviyyədə yetişən nəslin ixtiyarına verilməsi gələcək nəslin sağlam, savadlı, yetkin bir formada böyüməsinə təsirini göstərməkdədir. Bu il Heydər Əliyev Fondunun təşəbbüsü ilə Saatlıda 118 yaşlı məktəb üçün Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunaraq istifadəyə verildi. Qeyd edək ki, məktəb 1904-cü ildən 190 yerlik uyğunlaşdırılmış məktəb kimi fəaliyyət göstərir. Saatlı rayonunun ən qədim məktəblərindən olan Əlisoltanlı kənd tam orta məktəbinin binası sonuncu dəfə 1975-ci ildə təmir edilmişdi. Yüzdən çox yaşı olan məktəb binası istifadəyə yararsız vəziyyətdə olduğundan Heydər Əliyev Fondu ”Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində 360 şagird yerlik yeni bina inşa edib. Məktəbdə fənn otaqları, biologiya, kimya üzrə kabinet və laboratoriyalar, informatika kabineti, hərbi otaq, əmək otağı, kitabxana və oxu zalı, idman və akt zalları, futbol və voleybol meydançaları yaradılıb, yeməkxana istifadəyə verilib, məktəbin həyətyanı sahəsi abadlaşdırılıb.

Bakının Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəbdə müasir standartlara uyğun qurularaq istifadəyə verildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan məktəbdə sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var və məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Əlbəttə ki, ”Yeniləşən Azərbaycana - yeni məktəb” proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. Kürdəxanı qəsəbəsində istifadəyə verilən 304 nömrəli məktəb də Fondun həmin proqramı çərçivəsində inşa olunub. Birinci vitse-prezident Mehriban Əliyeva 2019-cu ildə Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olarkən, sakinlərin müraciəti əsasında şagird sıxlığı nəzərə alınaraq, yeni məktəb binasının tikilməsi üçün göstəriş verib. 2020-ci ildə qəsəbədə yeni təhsil ocağının tikintisinə başlanılıb. İndi 960 şagird yerlik 304 nömrəli məktəb kürdəxanılı şagirdlərin istifadəsindədir. Qəsəbədə tikilən yeni məktəb binasını Bakı şəhərinin, ətraf kənd və qəsəbələrin sosial iqtisadi inkişafı ilə bağlı görülən işlərin davamı hesab etmək olar. Son dörd il yarımda Sabunçu rayonu üzrə yeni inşa edilən, əsaslı təmir olunan və əlavə korpuslar tikilən məktəblərin sayı 13-dür. Kürdəxanı qəsəbəsindəki 304 saylı tam orta məktəb isə sayca 14-cüdür.

## GƏNC NƏSLİN DAHA SAVADLI, BİLİKLİ VƏ SAĞLAM YETİŞMƏSİNƏ HESABLANAN LAYİHƏLƏR

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb.

*Ardı Səh. 4*

# 2022-ci il - Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr ili

Əvvəli səh. 3

Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

İmişlidə isə 2022-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən məktəb və bağça binası istifadəyə verildi. A.Eminov adına 7 nömrəli tam orta məktəb və 3 nömrəli körpələr evi-uşaq bağçası üçün yeni binalar inşa olundu. Hər iki bina Novruz bayramı ərəfəsində istifadəyə verildi. 7 nömrəli tam orta məktəb üçün inşa olunan 800 şagird yerlik binada şagirdlərin təlim-tədrisi üçün müasir standartlara cavab verən zəruri şərait yaradılıb. Məktəbin köhnə binasının birinci korpusu 1953-cü ildə, ikinci korpusu isə 1962-ci ildə inşa olunub. Ötən müddət ərzində məktəbin binası fiziki cəhətdən köhnəldiyi və istifadəyə yararsız vəziyyətə düşdüyü üçün Heydər Əliyev Fondu tərəfindən 800 şagird yerlik yeni məktəb binası tikildi. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edildi. Əvvəlki binada olan çətin şərait, köhnə sinif otaqları, istilik sisteminin sıradan çıxması təhsilə öz mənfi təsirini göstərirdi. Bina artıq istismar müddətini başa vurmuşdu.






İmişli şəhər 3 nömrəli uşaq bağçası-körpələr evi üçün inşa olunan yeni bina da müasir standartlara uyğun tikilib. Bu körpələr evi-uşaq bağçasının əvvəlki binası 1990-cı ildə inşa olunmuşdu. Ötən müddətdə bağçanın binası fiziki cəhətdən köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü. Yeni tikilən körpələr evi-uşaq bağçasında balacalar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, tibb otağı, camaşırxana və digər inzibati və texniki otaqlar var. Uşaqların sağlamlığı, istirahəti və təlim-tərbiyə üçün lazimi şərait yaradılıb.

### YÜZLƏRLƏ UŞAĞA, YENİYETMƏYƏ YAŞADILAN BÖYÜK SEVİNC

Şamaxı rayonunda açılışı olan körpələr evi-uşaq bağçası və yeni məktəb binası müasi dövrün tələbləri əsasında qurulub. Sabir qəsəbəsində inşa olunan körpələr evi-uşaq bağçasının və Ovçulu kəndində tikilən yeni təhsil ocağı buranın sakinlərinə böyük sevinc gətirmiş oldu. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Masallıda 1 saylı uşaq bağçası üçün yeni bina tikilib istifadəyə verildi. Daha sonra Heydər Əliyev Fondu tərəfindən inşa olunan A.Mustafayev adına Həsənsu kənd tam orta məktəbinin yeni binası istifadəyə verildi. Həsənsu kənd tam orta məktəbinin binası ötən müddət ərzində fiziki cəhətdən köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondunun və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin təşəbbüsü ilə Daşkəsən rayonunun Quşçu qəsəbəsində modul tipli məktəb binası inşa olundu. Daşkəsən rayonunun "Çovdar" yatağının yaxınlığında, dağətəyi Quşçu qəsəbəsində yerləşən Səlmixan İsgəndərov adına tam orta məktəbin yeni inşa edilmiş modul tipli binasında 80 şagird yerlik 10 sinif otağı, 1 müəllimlər otağı, 1 kitabxana mövcuddur. Şəhid Səlmixan İsgəndərovun adını daşıyan məktəb tədris prosesi üçün zəruri avadanlıqlar, internet şəbəkəsi, kompüter, mebel və digər inventarlarla təchiz olunub.

Bu sahədə görülən işlərin davamı olaraq Binə qəsəbəsində orta məktəb binasının, Qaraçuxur qəsəbəsində körpələr evi-uşaq bağçasının açılışlarını da qeyd etməliyik. Hövsan tərəvəzçilik-südçülük sovxozunun ərazisi əhalinin sıx məskunlaşdığı yerlərdən biridir. Şagirdlər Binə qəsəbəsindəki mövcud təhsil müəssisəsinə qədər 5 kilometrdən çox məsafə qət etməli olurdular. Mövcud vəziyyət nəzərə alınaraq, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Fond tərəfindən Binə qəsəbəsində 800 yerlik yeni məktəb binası inşa olunub, yeni tədris ili ərəfəsində müəllim və şagirdlərin istifadəsinə verilib. Məktəbin üçmərtəbəli binasında lazımı bütün şəait yaradılıb.Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası da Heydər Əliyev Fondu tərəfindən istifadəyə verildi. Bu müəssisələrin sayı kifayət qədərdir ki, Heydər Əliyev Fondu bu sahədə gördüyü işlərlə yüzlərlə uşağa, yeniyetməyə il ərizində böyük sevinc yaşatmış oldu.Mehriban xanım Əliyeva hər zaman olduğu kimi, yola salacağımız 2022-ci ildə də möhtəşəm layihələrə imza atdı. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla yanaşı, gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşaraq uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onları sağlam ruhda tərbiyə etmək istiqamətində müxtəlif layihələr də həyata keçirdi. Əlbəttə ki, bu Mehriban xanım Əliyevanın yalnız təhsillə bağlı həyata keçirdiyi layihələrdir və növbəti yazımızda isə Heydər Əliyev Fondunun Qarabağımızda və Şərqi Zəngəzurda gerkələşdirdiyi layihələrə, eləcə də dini tolerantlığa, mədəniyyətimizə verdiyi töhfələrə, sosial layihələrə nəzər salacağıq.

***Nəzakət ƏLƏDDİNQIZI***



# “Bizim həyət” layihəsi çərçivəsində növbəti həyətin açılışı olub

## Açılışda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib













**Dekabrın 27-də Bakıda IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş ”Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib. Belə ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.**

Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil olunub, uşaqlara bayram hədiyyələri təqdim edilib. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş bayram əhval-ruhiyyəsi yaradıb, onlara sevinc dolu anlar bəxş edib.

Yenilənmiş həyət Xətai rayonu, 8 Noyabr prospektində, Cavanşir və Xaliq Əzizzadə küçələrində 8 hektar ərazidə 3 min 145 nəfər sakinin yaşadığı çoxmərtəbəli 10 binanı əhatə edir.

”Bizim həyət” layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmanla məşğul olmaq həvəsinin yaradılması məqsədilə ərazidə süni örtüklü 2 mini futbol stadionu, 2 şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 12 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 2 min 650 ədəd müxtəlif cinsli ağac və kollar əkilib, 4 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və havanın çirklənməsini səmərəli şəkildə azalda bilən adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə ”yaşıl sədlər” yaradılıb.

Sözügedən layihə çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.



# Yapon professor: ”Ermənilərin Qarabağdakı faydalı qazıntıları talan etməsi dünya üçün təhlükədir”

**Xankəndidə yaşayan ermənilərin Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdəki faydalı qazıntı yataqlarını talan etməsi yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün təhlükədir. Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində Keyo Universitetinin professoru xanım Yoko Hirose azərbaycanlı ekoloqların və ictimai fəalların Xankəndi-Laçın yolunda artıq iki həftədir davam edən etirazlarını şərh edərkən bildirib. Azərbaycanlıların öz torpaqlarında yerləşən təbii sərvətlərin talan edilməsinə qarşı etirazlarının haqlı olduğunu vurğulayan professor qeyd edib ki, bu, təkcə Azərbaycan üçün deyil, dünya üçün çox vacibdir.**



Rusiya sülhməramlılarının ərazidəki məsələ ilə bağlı mövqeyini şərh edən Y.Hirose bildirib ki, onların hazırda həmin ərazidə qalması tamamilə faydasızdır. Qoşunlarının əksər hissəsini Ukraynaya göndərən Rusiyanın keçmiş SSRİ-yə daxil olmuş bütün torpaqları qorumaq niyyəti də yersizdir. Çünki Rusiyanın bunun üçün kifayət qədər gücü yoxdur.

Ümumiyyətlə, hazırda Qarabağda baş verən proseslərin arxasında bir sıra qüvvələrin imperialist maraqları dayanır. Həmin qüvvələr hələ də keçmiş Sovet İttifaqı ərazisində öz hegemonluqlarını saxlamağa çalışırlar.

Y.Hirose bir sıra kütləvi informasiya vasitələrinin azərbaycanlıların Laçın dəhlizini bağlaması ilə bağlı yalan məlumatlar yayması məsələsinə də toxunub. Qeyd edib ki, bu yalan məlumatlar əsasən real vəziyyətdən xəbəri olmayan sadə oxuculara hesablanıb. Hazırda Xankəndini Ermənistanla birləşdirən həm köhnə, həm də Azərbaycanın çəkdiyi yeni yolun açıq olmasına diqqət çəkən professor təəssüflə bildirib ki, bəzi ermənipərəst siyasətçilər və media bu yalanı dəstəkləyir. ”Belə saxta xəbərlər müharibələrin ən güclü silahlarından biridir və ermənilər bundan istifadə etməyə çalışırlar. Bunun qarşısını almaq üçün Azərbaycan həm siyasətçilərlə işi yaxşılaşdırmalı, həm də kütləvi informasiya vasitələrinin bu yalan məlumatlarına qarşı mübarizəni gücləndirməlidir”, - deyə Y.Hirose bildirib.

# Bir çox məqamlara aydınlıq gətirən SUALLAR

**Bir çox hallarda sual doğuran məqamlar məsələnin mahiyyətini ortaya qoyur. Həmin sual doğuran məqamlar məntiqi olaraq işin nə yerdə olduğu qənaətinə gəlməkdə yardımçı olur və elə ekoaktivistlərin hələ də davam edən dinc aksiyaları ilə bağlı yaranan suallar da bir sıra məqamların aydınlaşdırılmasına kömək edir. Aydınlaşdırılması gərəkən həmin məqamlar isə hal-hazırda çox vacib məqamlar hesab olunur və həqiqətən də diqqəti cəlb edir.**











Sual doğuran ən maraqlı məqam ilk növbədə ekoaktivistlərin keçirdiyi aksiyanın Qarabağdakı separatçıları narahat etməsi ilə bağlıdır. Maraqlıdır, nəyə görə ekoaktivistlərin mədənlərə baxış keçirməsinə mane olmaq istəyirlər? Nədir onları narahat edən? Əgər fəaliyyətləri qanunidirsə, niyə narahat olurlar və nəyə görə baxış keçirilməsinə mane olmağa çalışırlar? Hansısa qanun pozuntusuna yol verməyiblərsə və bunu da bütün dünyaya car çəkmək istəyirlərsə, çəkilərdilər kənara və baxış keçirilməsindən heç narahat da olmazdılar. Yox, əgər mane olurlarsa, narahatdırlarsa, deməli, məntiqi olaraq belə nəticə hasil olur ki, qanun pozuntularına yol verirlər və ümumiyyətlə, qanunsuzluq edirlər, hansı ki, bunu elə özləri də yaxşı başa düşürlər. O zaman haylar nə hay salıblar dünyaya və həyazıslıqla qanunsuzluqlarını ört-basdır etməkmi istəyirlər? Axı bu məntiqi bütün dünya ictimaiyyəti çox yaxşı dərk edir və belə olan halda nəyə ümid edə bilərlər?

Ümumiyyətlə, ekoloji terror əleyhinə aksiya, yaxud bu istiqamətdə fəaliyyət kiminsə xoşuna gəlməyə bilməz və bu barədə fikir belə bildirilərsə, təpki ilə qarşılanmalıdır. Bütün dünya üçün ekoloji terror qəbuledilməzdir, həyəcan siqnalıdır və bu, təkcə azərbaycanlı aktivistləri deyil, ümumilikdə dünya ictimaiyyətini narahat etməlidir. Elə isə, bu fəaliyyətin əleyhinə kimdir çıxış edən və çıxış etdiyi zaman buna nə ad qoyulur? Ekoloji terrora qarşı çıxanlar, buna görə də aksiya keçirənlər nə vaxtdan qanunpozucusu hesab olunub ki, ad da qoyula bilsin? Yaxşı, bəs ekoloji terrora qarşı çıxanlar niyə kimlərinsə yuxusunu ərşə çəkib? Niyə ekoloji terrora qarşı çıxanlara da qarşı çıxanlar var? Bəs özünü beynəlxalq qurum, demokratik təşkilat, təsisat kimi göstərməyə çalışanlar necə, onlar nə səbəbə və niyə əl-ayağa düşüblər? Axı yenə də onların görmədiyi, lakin görməli olduğu işi azərbaycanlılar görürlər...

Qarabağdakı iki mədəndə ekoloji monitorinqin aparılmasına ermənilərin niyə şiddətlə etiraz etməsi barədə yaranan suallar tam yerinə düşür. Birincisi, bu torpaqlar, bu ərazilər kimə, hansı xalqa, hansı dövlətə məxsusdursa, həmin ərazilərdə olan mədənlərin də həmin dövlətə məxsus olduğu birmənalıdır və bunu hamı bilir, heç ermənilər belə buna etiraz edə bilməzlər. O halda, əgər ermənilər həmin əraziləri özlərininki sayırlarsa, bunu beynəlxalq huquq da belə qəbul edirsə, o zaman niyə kürklərinə birə düşüb? Özlərini haqlı kimi görürlərsə, qoy çəkilsinlər kənara, mədənlərdə ekoloji monitorinq aparılsın və onlar da bunu sakitcə seyr etsinlər. Amma görünən odur ki, kənara çəkilə bilmirlər. Əvvəla ona görə çəkilə bilmirlər ki, Azərbaycana məxsus olan ərazilərdə və mədənlərdə iş gördüklərini, başqa dövlətə məxsus olan filiz yataqlarını talan etdiklərini, bununla da qanunları pozduqlarını yaxşı bilirlər və buna görə də qorxuya düşüblər, hər vəchlə ekoloji monitorinqə mane olmağa çalışırlar. Digər tərəfdən də axı, onlar yaşadıqları yerləri belə viran edirlərsə, mövcud olduqları yerlərdə təbiətə olmazın işgəncələr verirlərsə, yaşıllıqları məhv edirlərsə, fauna və floraya ciddi zərbə vururlarsa, gör indi filiz yataqlarında hansı hoqqalardan çıxıblar və özlərini, öz vandallıqlarını, vəhşiliklərini hamıdan yaxşı tanıyan bu haylar buna görə monitorinqə mane olurlar.

Guya ekoaktivistlərin keçirdiyi aksiya səbəbindən məhrumiyyətlərlə qarşılaşdıqlarını bütün dünyaya çatdırmağa çalışanlar əvvəla, hansı məhrumiyyətlərlə qarşılaşdıqlarını iddia edə bilərlər? Kimsənin onlarla işi yoxdur və yalnız mədənlərlə bağlı məsələ müzakirə mövzusudur. Digər tərəfdən, əgər onlar məhrumiyyətlərlə üzləşiblərsə, yenə də çəkilsinlər kənara və ekoaktivistlər ekoloji monitorinqlərini keçirsinlər, aksiya da dağılsın, onlar da qondardıqları dırnaqarası ”məhrumiyyətlərdən” azad olsunlar. Maraqlıdır, həmin o mədənlərdə nə oyundan çıxıblar, nələr törədiblər, hansı qanunsuzluqlar hökm sürür ki, özlərinin uydurduqları o qondarma, dırnaqarası ”məhrumiyyətlərə” dözürlər, amma inadlarından əl çəkib kənara durmurlar? Onlardan bütün dünya ictimaiyyəti soruşa bilər ki, niyə dedikləri ”məhrumiyyətlə” razılaşırlar, amma iki yatağa bağış keçirilməsi ilə razılaşmırlar? Kənara çəkilib ekoloji monitorinqə mane olmamaq kimi məsələnin sadə və asan yolunu seçməyib, məsələni BMT-nin Təhlükəsizlik Şurasına qədər şişirdirlər? Zənn edirlər ki, bu sual barədə də düşünən olmayıb? Əgər belə zənn edirlərsə, yenə də yanılırlar.

İki mədəndə ekoloji monitorinqin aparılmasında qorxulu nə var ki, ermənilər bunu dəhşətə çeviriblər? Asan həll yolu olan məsələni daha da ağırlaşdırmaq onlara nəyə görə lazımdır? Daha doğrusu məsələni qəlizləşdirməyə niyə ehtiyac duyurlar? Əvvəla ona görə buna ehtiyac duyurlar ki, özləri də bilirlər orada ciddi pozuntuların aşkarlanacağını. Bunu etraf da edirlər. Etiraf edirlər ki, monitorinq zamanı həmin o iki mədəndə, Dəmirli və Qızılbulaq yataqlarında yüzlərlə pozuntu üzə çıxacaq. Bunu təkzib etmək də mümkün deyil, çünki həqiqətən də həmin yataqlarda ciddi ekoloji problemlər var. Deməli, ”zibillərinin” üstünün açılacağını, bu barədə də bütün dünyanın məlumatlandırılacağını bilirlər deyə, özlərinə əl qatıblar.

Ermənistana məxsus mətbuat səhifələrində açıq şəkildə qeyd edilir ki, Qarabağ ərazisindəki yataqlar Azərbaycana deyil, yerli ermənilərin separatçı qurumuna məxsus yataqlardır. Bu qədər absurd yanaşma olmazdı ki, biz erməni mediasında buna rast gəldik. Axı Qarabağ Azərbaycan torpağı olduğu halda, niyə oradakı yataqlar erməni separatçı qurumuna məxsus olmalıdır? Bu hansı məntiqə sığışır? Əgər başqa bir dövlətin ərazisində yerləşən filiz yataqlarının məhz onların separatçı qurumuna məxsus olduğunu deyirlərsə, belə davam etsə, utanmadan neft yataqlarımız barəsində də oxşar sərsəm fikirlər səsləndirə bilərlər, eləmi? Bir sözlə, bu hayasız hayların cavabı verilməzsə, daha nə axmaq düşüncəyə sahib olacağını ağıla belə gətirmək olmaz. Elə ona görə də Azərbaycana məxsus olan mədənlərdən çəkilmələri, həmin yataqları istismar etmələrinə son qoymaları tələb olunur və buna nail olana qədər də tələb olunmalıdır.

Göründüyü kimi, azərbaycanlı ekoaktivistlərin aksiya keçirməsində, mədənlərin qanunsuzcasına istismar edilməsinə qarşı çıxılmasında ağıla sığmayan, yaxud qeyri-adi heç nə yoxdur. Mədənlərin qanunsuz istismarına son qoyulmalıdır və məntiq də, ədalət də, qanun da bunu tələb edir. Hələ belə bir hadisəyə bəşər tarixində rast gəlinməyib ki, torpaq bir dövlətin ərazisi olsun, orada yerləşən mədənləri, filiz yataqlarını başqa bir dövlət, yaxud qondarma qurum istismar etsin. Sivilizasiya baxımından ən qabaqcıl ölkələrdən tutmuş, Afrikada yaşayan tayfalara qədər, heç yerdə belə hay həyasızlığı müşahidə edilməyib. Ən başlıcası isə, rüsvayçı məğlubiyyət fonunda həmin o separatçı qurum gör nə qədər həyasızdır ki, qalib ölkənin ərazsisndə məskunlaşması, həmin ölkənin humanizmi sayəsində toxunulmaz, təhlükəsizlik şəraitində yaşaması, erməni əsillilərin təhlükəsizliyinin də həmin ölkə tərəfindən təmin edilməsinin müqabilində həmin ərazidə yerləşən filizi də istismar edir və buna görə özünə haqq da qazandırır, hələ üstəlik ekoaktivistlərin aksiyasına qarşı da dünyaya səs-küy salır.

Bilirik ki, ekoaktivistlərin aksiyası heç bir erməni üçün hansısa təhlükə, yaxud məhdudiyyət yaratmayıb və yaratmır da. Çünki bu aksiya dinc aksiyadır və məqsəd Qarabağ ərazidindəki erməni əsillilərin incidilməsi, yaxud onlara təzyiq edilməsi deyil. Məqsəd ekoloji terrorun qarşısının alınması, eləcə də ölkəmizə, xalqımıza məxsus olan sərvətlərin talanmasına, oğurlanmasına son qoymaqdır. Bu da hansısa bir qeyri-adi məqsəd, yaxud fəaliyyət olaraq qiymətləndirilə bilməz. Hər bir xalqın, hər bir dövlətin özünə məxsus olan sərvətləri üçün, öz haqları naminə mübarizə aparması normal haldır, hətta yüksək qiymətləndirilir də. O halda ekoaktivistlərin dinc aksiyasının kimlər üçünsə, daha dəqiq desək, ermənilər və onların havadarları, ermənipərəstlər, eləcə də Ermənistanın özü üçün bu qədər qəbuledilməz hesab olunması əlbəttə normal təzahür deyil. Aksiyaya qarşı ermənilərin belə qara-qışqırıq salmasından dərhal bəlli olur ki, öz əməllərindən, törətdikləri ekoloji terrora görə cavab verməli olacaqlarından bərk narahatdırlar.

Məsələnin başqa bir tərəfi də Azərbaycana məxsus Qarabağ ərazisindəki mədənlərdən, yataqlardan qeyri-qanuni yolla hasil edilən, daha dəqiq desək qanunsuz istismar yolu ilə oğurlanan filizin realizə olunmasından gələn gəlirin separatçı quruma çatması, onların bu vəsaitlərdən Azərbaycan əleyhinə istifadə etməsi məsələsidir. Təsəvvür edək ki, dövlətə, xalqa məxsus torpaqlardan qanunsuz şəkildə hasil edilərək oğurlanan filizdən külli miqdarda əldə edilən vəsait həm silah-sursat alışına sərf olunaraq məhz Azərbaycana qarşı, Azərbaycan vətəndaşına tuşlanır, həm də həmin ərazidəki anti-Azərbaycançı qüvvələri ölkəmizə qarşı ruhlandırır, bir az da harınladır. Harınlamışların isə verdiyi qərarlar, cızdıqları yol elə öz əyri yollarından yaxşı ola bilməz və bu da nəticə etibarı ilə vəziyyətin qəlizləşməsinə xidmət edə bilər. Heç kim üçün sirr deyil ki, Ruben Vardanyan kimi maliyyə fırıldaqçısının Rusiya vətəndaşlığından imtina etməsi, oradan birbaşa Qarabağa gəlməsi, orada məskunlaşması heç də sıradan bir təsadüfi hadisə hesab oluna bilməz. Bu fırıldaqçı maliyyə əldə etmək əvəzinə dırnaqarası ”vətənpərvərliyi” seçəcək bir adam deyil. Onun yenə də məqsədi çoxlu maliyyə əldə etmək, talamaq, fırıldaqçılıq etməkdir. Burada da birinci məqsədi həmin ərazilərdəki faydalı qazıntıların mümkün qədər çox talanması, onların daha çox istismarıdır. İndi biz görürük ki, həmin maliyyə fırıldaqçısı böyük vəsaitlər əldə etmək, həmin vəsaitlərin bir hissəsini də Rusiyaya ötürmək üçün Qarabağa gəlibmiş və arzuladığına məhz ekoaktivistlərin mane, əngəl olması aranı qarışdırmaq istəyinin, niyyətinin artıq baş qaldırması ilə nəticələnib. Hətta Qarabağ ərazisində yaşayan erməni əsillilərin, hansıki Azərbaycanın qanunlarını, yaşayış şəraitini qəbul edərək dinc yaşamaq istəyirlər, gününü qara etdikləri də bir reallıqdır. Ruben Vardanyan indi artıq özünün rusların oyununun bir zərrəsi, bir parçası olduğunu dərk edir deyə, aranı qarışdırmaq istəyir, bacardıqca ziyan vurmaq üçün əldən-ayaqdan gedir. Məhz bu baxımdan cəsarətlə deyə bilərik ki, filiz yataqlarının talanmasının qarşısının alınması prinsipial məsələdir və oradakı dinc aksiyaçıların tələbləri vətəndaşlıq hissinin təzahürüdür. Vətəndaşlıq borcunun nə olduğunu çox yaxşı dərk edən, vətəni uğrunda canından, qanından keçməyə yenə də hazır belə vətəndaşları olan ölkənin paxıllığını düşmənləri niyə də çəkməsinlər? Özləri üçün boş və mənasız miflər yaradan, 44 günlük müharibə dönəmində isə hərbçiləri, hərbi texnikası, silah-sursatı, eləcə də qondarma mifləri darmadağın edilən separatçılar niyə də bizə, ölkəmizə, xalqımıza baxıb paxıllıq hissi keçirməsin? Axı onlar yalnız oğurluqla, kimlərə isə məxsus olanın ələ keçirilməsi ilə məşğul olduqlarını bildikləri üçün bu günlərdə ekoaktivistlərin fəaliyyətinə həm qarşı çıxırlar, həm də paxıllıq edirlər. Ümumiyyətlə, aksiyanın niyə rezonans doğurduğu artıq sualların fonunda bəlli olur.

***İnam Hacıyev***

# "Rusiya və Azərbaycan Qərb və Ermənistanın planlarını pozacaq"



Tanınmış politoloq, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bu il niyə imzalanmadığı ilə bağlı danışıb. - Niyə bu il Azərbaycanla Ermənistan arasında sülhün imzalanmasına nail olmaq mümkün olmadı? - Böyük gözləntilər var idi ki, 2022-ci ildə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanacaq. Lakin ilin ikinci yarısı, xüsusən də son aylar göstərdi ki, Ermənistan rəhbərliyi qarşıdurma davranış modeli seçib və üçtərəfli bəyanatda və sonradan ən yüksək səviyyədə əldə olunmuş razılaşmalar üzrə öhdəliklərini yerinə yetirməməsi ilə yanaşı, Azərbaycan tərəfinə qarşı genişmiqyaslı həm siyasi, həm də hərbi təxribatlar taktikası seçib. Son həftələr İrəvan sözün əsl mənasında neqativlərlə dolub. Məhz buna görə də Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması, nizamlanmanın əsas nöqtələri üzrə irəliləyişlə bağlı bütün ümidlər bu il ümid olaraq qaldı. Aydındır ki, bu, şüurlu siyasətdir və həm də onunla səciyyələnirdi ki, il ərzində Ermənistan nizamlamadakı vəziyyətə xarici oyunçuları fəal şəkildə cəlb etməyə çalışıb. O, Fransanı, ABŞ-ı, ATƏT-in Minsk Qrupunu, ümumilikdə Qərb ölkələrini, Avropa İttifaqını cəlb etməyə çalışaraq beynəlxalq erməni diasporunun səylərinin dünyanın əsas paytaxtlarında siyasi əhval-ruhiyyəyə də təsir edəcəyini düşünüb. Son hadisələr 2023-cü il üçün də nikbinlik vermir. - Göründüyü kimi, Ermənistan tərəfindən üçtərəfli danışıqların son pozulmaları İrəvanın eyni siyasəti ilə bağlıdır - həm Brüsseldə Azərbaycan, Ermənistan liderləri və Avropa İttifaqı Şurasının rəhbəri, həm də ötən həftə Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində. - Doğrudur. Brüsselə gəlincə, burada Paşinyan danışıqlarda öz mövqeyini gücləndirmək istəyib, ona görə də erməni maraqları üçün dünyanın əsas siyasi lobbiçisi olan Fransa prezidentinin iştirakını ilkin şərt edib. Bildiyimiz kimi, Fransa Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı tamamilə qeyri-konstruktiv mövqe tutub. Bu il biz Fransadan bir sıra qalmaqallı anti-Azərbaycan demarşlarının şahidi olduq. Bu, Azərbaycanın Fransadakı səfirliyinə hücumdur. Və Fransa Senatı və Milli Assambleyası tərəfindən qəbul edilən və Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalisinin separatçı istəklərinin tamamilə həyasız, kinsiz formada dəstəkləndiyi anti-Azərbaycan bəyanatları.

Bu, həm də Fransadakı erməni lobbisinin dağıdıcı fəaliyyətidir. Paşinyan Fransa tərəfi ilə fəal əməkdaşlıq edib. Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru və Britaniya xarici kəşfiyyatı MI6-nın direktorunun İrəvana səfərlərini, Qərb güc mərkəzlərinin aktiv fəaliyyətini də xatırlayaq. Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində bədnam monitorinq missiyası. İrəvanın Qarabağda Rusiya sülhməramlılarının əvəzinə NATO kontingentinin yerləşdirilməsini təmin etmək üçün aktiv cəhdləri. Bütün bunlar, əlbəttə ki, sülh prosesinə təsir etdi. Bu siyasət Ermənistan tərəfindən müxtəlif növ silahlı təxribatların kəskin şəkildə artması ilə müşayiət olundu. Bütün bunlar vəziyyəti ciddi şəkildə pozdu. Ararat Mirzoyanın Rusiya xarici işlər nazirinin vasitəçiliyi ilə Azərbaycan xarici işlər naziri ilə görüş üçün Moskvaya gəlməkdən imtina etdiyi son hadisələr də daxil olmaqla. Üstəlik, o, bunu tamamilə abırsız şəkildə edib və bu, Rusiya Xarici İşlər Nazirliyinin rəhbərinin müvafiq reaksiyasına səbəb olub. Hələ baş nazir Nikol Paşinyanın Rusiya sülhməramlı kontingentinə qarşı yolverilməz tonda və Kremlin və Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndələrinin cavab verməyə məcbur olduğu ifadələrə baxın. Bütün bunlar atmosferə və sülh yolu ilə nizamlanma imkanlarına son dərəcə mənfi təsir göstərdi.

Açığı, İrəvan bilərəkdən belə bir davranış taktikası seçdi. Amma mənfi cəhətləri nəzərə almasaq, bu heç kimə, o cümlədən Ermənistanın özünə heç nə gətirməyəcək. Laçın dəhlizindəki vəziyyət də Ermənistan tərəfindən qəsdən təhrik edilir. Bu məsələ, əgər erməninin iradəsi olsaydı, artıq həll oluna bilərdi. Sergey Lavrovun bəyanatlarına əsaslanaraq, XİN Qarabağdakı mədənlərdə qeyri-qanuni iqtisadi fəaliyyət probleminin mümkün müzakirə mövzusu olduğunu etiraf edir. Lavrov qeyd edib ki, sülh müqaviləsi bütün məsələləri həll edə bilər. Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisində qeyri-qanuni fəaliyyət Ermənistan firmaları tərəfindən həyata keçirilir ki, onların son benefisiarları bəzi ofşor şirkətlər və Qərb iş adamlarıdır. Burada təkcə Azərbaycanın təbii sərvətlərinin talanması deyil, ətraf mühitə vurulan zərbə ilə müşayiət olunur. Əgər Ermənistan bu qeyri-qanuni fəaliyyətlə bağlı təlaş salırsa, deməli, bu, kiməsə lazımdır. Bu onu göstərir ki, görünür, İrəvanda maraqlı tərəflər var, çünki bu cür fəaliyyət onların təşkilatlarına hər ay on milyonlarla dollar gəlir gətirirdi. İndi talan etmək və ixrac etmək mümkün olmayanda, təbii ki, bundan çox əziyyət çəkənlər də var. - Yəni, Ermənistan sülhə doğru getmək istəmir, nizamlanmanı geri atmaq istəyir? - Ermənistan nizamlanma ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməmək üçün gecikdirmə, təxribat, demaqogiya, siyasi və hərbi təxribat taktikasını davam etdirmək istəyir. Paşinyanın motivləri tamamilə aydındır. Onun üçün əsas məsələ şəxsi siyasi hakimiyyəti saxlamaqdır, çünki o, artıq onun cazibədarlığını və onun çevrilmə imkanlarını dadıb. Bu baxımdan Ermənistan ənənəvi, ardıcıl, tamamilə əvvəllər apardığı siyasətin ruhuna uyğun hərəkət edir.

Zaman keçir, regional və beynəlxalq vəziyyət dəyişir, regionda qüvvələr balansı dəyişir, yeni siyasi reallıq yaranır, amma Ermənistanın siyasətində heç nə dəyişmir. Erməni siyasi elitasının mentaliteti necə idisə, elə də qalır. Ermənistan iki il əvvəl məğlubiyyətdən, təslim olmaqdan "ayıldı" və yenə də dişlərini nümayiş etdirərək, hər yerdə tələ qurmağa və Qərb elitasının göz yaşını sıxaraq bütün dünyaya "soyqırım"ın demək olar ki, başlandığını təbliğ etməyə çalışır. Halbuki, Qarabağda olan ermənilərə qarşı nəsə edilməsi tamamilə cəfəngiyyatdır. Qərb Rusiyanı ənənəvi mövcudluğu və təsir dairəsi olan Ermənistan-Azərbaycan nizamlanmasından sıxışdırmaq üçün il ərzində Ermənistandan da öz aləti kimi istifadə edib. Bu bir tərəfdən. Digər tərəfdən, Qərb və Ermənistan Rusiya və Azərbaycanı bir-birinə sıxışdırmağa, münaqişəyə sövq etmək istəyirlər ki, bu da Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşmasını pozsun. - Sergey Lavrov dekabrın 23-də Moskvada azərbaycanlı həmkarı ilə danışıqların yekunlarına əsasən bildirib ki, sülh sazişinin imzalanmaması üçün heç bir səbəb yoxdur, çünki bunun üçün bütöv əsas var, Praqada qəbul olunmuş bəyanat bunu mümkün edir. bütün məsələləri həll edin.

Bu Ermənistandan siqnaldırmı? - Rusiya Xarici İşlər Nazirliyi ənənəvi olaraq Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması üçün əlindən gələni edir. Aydındır ki, sülh müqaviləsi ilk növbədə tərəflərin ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanmalıdır. Ermənistan isə bu tezisi müxtəlif hiylələrlə ört-basdır etməyə çalışır ki, bu da ermənilərin gözündə sülh müqaviləsinin əsas dəyərini sıfıra endirəcək. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən formalaşdırılmış və İrəvanla Bakı arasında sülh sazişinin bünövrəsinə, əsasına çevrilməli olan 5 prinsip var. Bu, heç bir istisnasız olaraq, Azərbaycan Qarabağında yaşayan ermənilərin müəyyən statusuna iddialar olmadan Azərbaycanın ərazi bütövlüyünün əsas tanınmasıdır. Paşinyan hiylə işlətməyə davam edəcək. Sülh istəklərini bəyan etmək, lakin de-fakto əksinə hərəkət etmək. - Bununla yanaşı, Rusiya Xarici İşlər Nazirliyi bir daha bəyan etdi ki, sülh sazişi müəyyən müddətə bağlanmamalıdır. Burada ən vacib şey effektiv nəticədir. Belə bir mövqe necə şərh edilə bilər? - Bunu elə şərh etmək olar ki, 2023-cü ildə heç nə imzalanmayacaq. Yaxşı, əsas tərəflərdən biri olan Ermənistanın Moskva danışıqlarında iştirak etməməsini necə şərh etmək olar? Əslində bu, sadəcə demarş deyil, Ermənistanın Rusiyaya hörmətsizliyinin belə bir ictimai göstəricisidir. Ararat Mirzoyanın gəlib danışıqlarda iştirakına, imkan daxilində müəyyən kompromislər axtarmasına heç nə mane olmurdu. Ermənistanın bu danışıqlardan imtina etməsinin özü də eyni siyasətin davamıdır.

Xatırlayırıq ki, İrəvanda keçirilən KTMT sammitində Nikol Paşinyan onun əsas sənədlərini imzalamaqdan imtina etmişdi. İndi İrəvan çox vacib olan danışıqlar üçün Moskvaya gəlməkdən imtina etdi, çünki Avropa yolunda hələ də qırmızı işıq yanır və yaxın gələcəkdə orada görüşlər demək olar ki, mümkün deyil. Bu, İrəvanın şüurlu siyasətidir, uçot dərəcəsini artırmaq, Rusiyaya qarşı hərbi-siyasi şantajla məşğul olmaq cəhdlərini təhrik etmək siyasətidir. Bu cür davranış Moskva ilə İrəvan arasında mehriban qonşuluq münasibətləri, əməkdaşlıq prinsiplərinə uyğun gəlmir. Ermənistan Rusiyaya dişini qıcayıb qapını amansızcasına çırpmaq istəyir. Bu birdəfəlik hərəkət deyil, düşünülmüş, əvvəlcədən planlaşdırılmış uzunmüddətli davranışdır. - Bu şəraitdə Rusiya və Azərbaycan nə edəcək? - Rusiya və Azərbaycanın görməli olduğu ilk şey vəziyyətdən xəbərdar olmaq və düşmənlərimizin öz istək və maraqlarını həyata keçirməsinə mane olmaq üçün hərəkət etməkdir. Həm Rusiyada, o cümlədən müxtəlif səviyyələrdə, həm də Rusiya Federasiyası ilə Azərbaycan arasında baş verə biləcək toqquşmada kənardan xeyli maraqlı tərəflər var. Aydındır ki, kütləvi kampaniya gedir. Gələcək üçün, üçlü bəyanatın ideya və mənaları uğrunda mübarizə gedir. Hesab edirəm ki, Moskva bu halda öz milli maraqlarını və sağlam praqmatizmini rəhbər tutmalıdır. Azərbaycan Rusiya üçün postsovet məkanında əsas ticarət və iqtisadi tərəfdaşlardan biridir. Etibarlı müttəfiq. Üstəlik, bütün yeni reallıqlar fonunda, o cümlədən onun vasitəsilə Şimal-Cənub dəhlizinin fasiləsiz işləməsi mümkün olacaq. Bu il əlaqələrimizin gələcək üçün əhəmiyyətini bir sıra tədbirlər göstərdi. Bunlar Mixail Mişustinin səfəri çərçivəsində Bakıda keçirilən Rusiya-Azərbaycan Regionlararası Forumu, Xəzər İqtisadi Forumu, Verona Avrasiya İqtisadi Forumudur. Bu, bizim ən böyük enerji şirkətlərimizin Azərbaycanla müxtəlif formatlarda əməkdaşlığa marağıdır. Azərbaycanla əlaqələrimiz Rusiya Federasiyası üçün son dərəcə dəyərlidir. Rusiya və Azərbaycan ən kritik məqamlarda belə ortaq məxrəc görməlidir. Nə emosiyaların, nə də erməni maraqlarının lobbiçilərinin münasibətlərimizi korlamasına imkan verməməliyik. Hesab edirəm ki, əsas amil ölkələrimizin liderləri arasında yaranmış münasibətlərə inamdır. Ona görə də informasiya sahəsində Rusiya və Azərbaycanı bir-birinə qarşı qoymaq cəhdlərinə baxmayaraq, bu cəhdlərin təşəbbüskarları uğur qazana bilməyəcək. Rusiya üçün xüsusi hərbi əməliyyat məsələlərinə diqqət yetirmək son dərəcə vacibdir.

Ona görə də Cənubi Qafqazda yeni münaqişəni qızışdırmağa, Rusiya və Azərbaycanı bu münaqişəyə cəlb etməyə çalışanlar ya erməni maraqlarını güdürlər, ya da Zaqafqaziyada ikinci cəbhə yaratmağa çalışırlar. Biz bunu bütün səviyyələrdə tamamilə dayandırmalıyıq. - Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi sammiti ərəfəsində Dmitri Peskov Putin, Əliyev və Paşinyan arasında üçtərəfli görüşün planlaşdırılmadığını bildirib. Düzdür, sonradan onun tərəfindən deyildi ki, üçtərəfli pərdəarxası təmaslar ola bilər... Və bu gün Vladimir Putin Paşinyanla ikitərəfli görüşdə belə üçtərəfli əlaqələri təsdiqləyib. - Hesab edirəm ki, həm Vladimir Putin, həm də İlham Əliyev bir çox məsələlərin həll oluna biləcəyi rəsmi məhsuldar üçtərəfli görüşün keçirilməsinə tamamilə hazır idilər. Açığı, Ermənistan tərəfi nəinki hazır deyil, belə bir görüşü istəmir. İrəli getmək üçün bütün imkanlar var, belə bir görüşün rəsmi şəkildə baş tutmaması, hesab edirəm ki, bu, həm də rəsmi İrəvanın şüurlu mövqeyidir. Ola bilsin ki, sonradan Paşinyana buna baxmayaraq başa salıblar ki, o, razılaşmaları yerinə yetirməli, məsələlər həll olunmalıdır. Ona görə də pərdəarxası danışıqlar aparıla bilər. İstənilən halda tarixin məntiqi sadəcə olaraq Ermənistanı İkinci Qarabağ müharibəsindən və üçtərəfli sazişin imzalanmasından sonra formalaşmış reallıqları tanımağa məcbur edəcək. Məsələ hansı ssenari əsasında və nəyin bahasına olmasıdır. Amma gec-tez bu baş verəcək. Xərcləri və qiyməti çox yüksək olarsa, Ermənistan ödəyəcək. Və bütün iddialar Ermənistanın siyasi rəhbərliyinə verilməli olacaq.

***Tərcümə - Elçin Bayramlı***




## "Aksiya iştirakçıları yüksək əzm və qətiyyət nümayiş etdirirlər"

"Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası on beş gündür davam edir. Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır". "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, aksiya iştirakçıları günlərdir ki, yüksək əzm, mətanət, qətiyyət nümayiş etdirirlər: "Bu gün ölkəmizin vətəndaş cəmiyyəti fəalları dinc aksiya mədəniyyətinin necə olduğunu həm Ermənistana, həm də onların havadarlarına nümayiş etdirirlər. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının iclasında da ikili standartlar gördük. Onlar 30 il ərzində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə necə göz yumurdusa, indi də ekoloji terrora göz yumur, bu terrora qarşı çıxanları başqa cür təqdim edirlər. İşğaldan azad edilən torpaqlarımızda sərvətlərimiz talanır, ekologiyaya ziyan vurulur. Bu özbaşınalığa son qoyulmalıdır. Əks-təqdirdə Azərbaycan xalqı onları özü düzənə məcbur etməli olacaq. Çünki bu talançılıq hazırda da davam edir. Rusiyalı sülhməramlıların bu əməllərə göz yumması təəssüf doğurur. Bu durum Azərbaycan xalqı tərəfindən haqlı olaraq hiddətlə qarşılanır və böyük etirazlara səbəb olur. Azərbaycan ictimaiyyətinin nümayəndələri bu etirazla bir daha dünyanın diqqətini Qarabağa yönəldir, ölkəmizə haqq-ədalət tələb edir. Biz ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsini tələb edirik".

***Gülyana***

ARAŞDIRMA + TƏHLİL



# Qərbi Azərbaycana həsr olunan doğum günü

**Prezident İlham Əliyev: Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.**

Dekabrın 24-də dövlətimizin başçısı, Ali Baş Komandan, müzəffər sərkərdə, bütün azərbaycanlıların sevimli Prezidenti cənab İlham Əliyev yenə də adəti üzrə ad günündə bu xalqın nümayəndələri ilə bir yerdə oldu. Cənab İlham Əliyev: Mən əvvəlki dövrdə adətən 24 dekabr günündə məcburi köçkünlərlə bir yerdə olurdum, doğum günümü heç vaxt qeyd etməmişəm, ancaq ailə üzvlərimlə qeyd etmişəm. Hesab edirəm ki, bugünkü gün istisna deyil, yenə də ailə üzvlərimlə birlikdə qeyd edirəm.

Əlli yaşım olanda Ağcabədidə məcburi köçkünlərlə bir yerdə idim və onlara demişdim ki, gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, qarşılayacaqsınız, mən sizin diyarınıza qonaq gələcəyəm və o gün gəldi. O gündən doqquz il sonra biz artıq Şuşada idik, bayrağımız da Şuşada dalğalanırdı. Altmış yaşımı Cıdır düzündə qeyd etmişəm, ondan əvvəl azad edilmiş Hadrutda hərbi hissənin açılışında iştirak etmişəm. Bu il dekabrın 24-ü üçün əlbəttə ki, bəzi fikirlərim var idi. Bu da bir rəmzi məna daşımalı idi. Hesab etdim ki, ən düzgün tədbir, bax, bizim bugünkü tədbirimiz olmalıdır.

Öz ad gününü Qərbi Azərbaycana həsr edən Prezident cənab İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış oldu və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdü, tarixi faktlara söykənən maraqlı çıxış etdi, verdiyi mesajlarla qəlblərdə yeni bir inam yaratdı: Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

## Tarixə səyahət

Elə tarixi 24 dekabr gününün dəyərli anlarından yola çıxaraq Qərbi Azərbaycan mövzusunda kiçik bir araşdırma apararaq ermənilərin və onların havadarlarının zaman-zaman Azərbaycan torpaqlarını işğal etməsinə, bu gözləri ac millətin nadan xislətinə işıq salıb tarixi faktların nədən söhbət açdığını xatırlatmaq istədim.

Tarixin hansı səhifəsini çevirsək, ermənilərin zaman-zaman Azərbaycan torpaqlarına yerləşdirilməsinin və yerləşmələrinin şahidi olarıq. Haradan gəldikləri, əsillərinin kim olduğu məlum olmayan ermənilər sanki bir ovuc "yaranmış" kimi dünyaya səpələnmiş, sonra bir-birilərinin qoxusuna bir yerə toplaşaraq görmüşlər ki, sağları bir xalq, solları bir millət, bu qənaətə gəlmişlər ki, nə edək, necə edək ki, bizim də bir qarış torpağımız olsun. Beləliklə də başlamışlar fəaliyyətə. Düşünmüşlər ki, bunun yalnız bir yolu var: kiminsə kölgəsinə sığınmaq, yazıq görkəm almaq və yaltaqlıq etmək. Bu bir ovuc "yaranmış" tənbəllik etmədən bu üç əsas amili həyata keçirməyə başlamışlar.

Onlara yazığı gələn Azərbaycan xalqı oldu. Yaltaqlıqlarından istifadə etməklə xislətlərində olanları həyata keçirənlər isə başqaları.






Bu bir "ovuc" olanlar nəticəni gördükcə bir qədər də irəlilədilər. Ordan bir parça, burdan bir parça qoparmaqla torpaq sahibi oldular. Özlərini miskin görkəmə salmaqla və yaltaqlıqla, satqınlıqla bu bir parça torpaqlarını genişləndirmək üçün əl atmadıqları vasitə qalmadı.

Çox təəssüflər olsun ki, ermənilər xalqımızın tale yazısı oldu. Onlara bizimlə qonşuluqda yaşamaq şansı verildi. Beləliklə başladılar bizim tarixi torpaqlarımız hesabına öz ərazilərini genişləndiməyə. Özlərinə yer edəndən sonra torpaqlarımızda soyqırımlar, təxribatlar törətməklə soydaşlarımızı qətlə yetirdilər, sağ qalanları pərən-pərən saldılar. Yaltaqlıq və riyakarlıqlarından istifadə edib himayədarlarına çevrilənlər onları zaman-zaman Azərbaycan torpaqlarına yerləşdirməyi qarşılarına məqsəd qoydular. Çünki bu çox mənada onlara da sərf edirdi. Bunu tarixi faktlar da sübut edir.



## Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə məktubundan

"Ulu şahım Beynənnəhreyndən (Mesopotamiyadan) Van gölü sahillərinə, oradan da Qafa ( Qafqaza ) oğuz-türk torpaqlarına 5-5, 10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə, məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürünü yaradırlar ki, bu da istiqbalda nəsillərimizə baş ağrısı verəcək Bu işləri indi Ağkilsə (Əçmiədzin) kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir Qarışıq nigahlar məni qorxudur, Şahım! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım Vətənin dışarına. Sənin qulun Rəvan Xan".

## İrəvan əyalətinin icmal dəftəri, 1519. İrəvan qalabəyisi

I Pyotrun əmrlərindən

"I Pyotr ölümündən qabaq, 10 noyabr 1724-cü ildə üç ermənini erməni katolikosu İsayya ilə birlikdə qəbul edir. "Ermənilərə əl tutmaq və Xəzəryanı əyalətlərdə yerləşdirmək" barədə onların xahişini dinləyir. Elə o gündəcə I Pyotr erməni xalqının orada yerləşdirilməsi haqqında general-leytenant Matuşkinin və briqadir Levaşovun adına buyruq verir: "Ermənilərin Gilan, Mazandaran, Bakı, Dərbənd və başqa ərazilərdə yerləşdirilməsinə çalışın, bu bölgələrdəki yerli əhalini isə imkan düşdükcə sıxışdırıb oradan çıxarın".

## XIX əsr rus tarixçisi P.Q.Butkov

***

I Pyotr Matyuşkinə göndərdiyi fərmanda yazırdı: "Bakı sakinlərindən silahlar yığılsın, müqavimət göstərənlər Astarxana sürgün olunsunlar. Şahın 300 nəfərlik xidmət adamlarından 100 silahlı suvarini imperator xidmətinə qəbul etmək, qalanlarını isə azad etmək. Daha çox bakılının şəhərdən köçürülməsi mümkündür. Gilan və Mazandaranda da müsəlman türklərini azaltmaq gərəkdir".

***

I Pyotr tərəfindən Xəzərboyu vilayətlərdə fəaliyyət göstərən rus hakimiyyəti orqanlarına belə bir göstəriş verilmişdi: "1) Müqəddəs Xaç, Dərbənd və Bakı qalalarında məskunlaşmaq üçün ermənilərə tələb olunan və kifayət qədər yer ayrılsın. Salyan, Gilan və Mazandaranda həm şəhərlərdə, həm də kəndlərdə bu qaydaya əməl edilsin; 2) ermənilərə boş qalmış, kimsəsiz həyətlər və məskənlər, həmçinin Rusiyanın açıq düşmənlərinə və şübhəli şəxslərə mənsub mülklər də verilsin; 3) ermənilərə hər cür köməklik göstərilsin və onların müsəlmanlardan möhkəm qorunması təmin edilsin".

## Potyomkinin II Yekaterinaya məktubundan

19 may 1783-cü ildə rus qoşunlarının baş komandanı general-feldmarşal knyaz Q.A.Potyomkin II Yekaterinaya yazırdı:"Fürsət düşən kimi Qarabağda hakimiyyəti ermənilərə verəcək və bunlar vasitəsi ilə Asiyada xristian dövləti yaradacağımız barədə erməni məliklərinə göstərişlər vermişəm". 1780-cı il yanvarın 3-də Moskvada özünə yer etmiş erməni keşişi Arqutinski və Yegizaryanın uydurma "Böyük Ermənistanın" bərpası və İrəvanda ayrıca Erməni dövləti yaradılması xahişinə knyaz Q.A. Potyomkinin cavabı: "Bu mümkündür, ancaq sizin patriarxınız bir neçə yerli hakimlə sizinkilərin xilası haqqında məsələ qaldırması vacibdir, bundan sonra biz sizin köməyinizə gələrik".

Bəli, yüzlərlə belə faktlar gətirmək olar ki, tarixin bütün dönəmlərində Azərbaycan torpaqlarının tarixi sahiblərindən qoparılaraq ermənilərə verilməsində maraqlı şəxslər olub. Bu, bir tərəfdən xristian aləminin genişlənməsinə, müsəlman aləminin sıxışdırılaraq aradan çıxarılmasına hesablanmışdırsa, digər tərəfdən də ümumilikdə türk dünyasının birləşməsinin qarşısını almaq məqsədilə gələcəyə hesablanmış tədbirlər, planlar idi.

## İrəvan-Zəngəzur-Naxçıvan

Uzun illər ərzində ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsi və ya tarixi torpaqlarımızın ermənilərə verilməsi ilə bağlı planların həyata keçirilməsinin çox keçmədi ki, şahidlərinə çevrildik. Bu planlar o qədər uzaqgörənliklə hazırlanmışdı ki, həyata keçdikcə Azərbaycan üçün yeni-yeni problemlər yaradacaq, onun tarixi ərazilərini qoparıb özündən kənara atacaqdı. Bunu vaxtında lazımi şəkildə götür-qoy edə bilmədiyimiz üçün bizdən əvvəl düşünüb həyata keçirənlər oldu. İrəvanın ermənilərə verilməsi isə böyük səhvliklə ermənilərə verilməsi problemlərin başlanğıcı oldu. İrəvanın əldən getməsi Zəngəzura yol açdı. Zəngəzurun ermənilərə verilməsi isə Naxçıvanın məxsus olduğu ölkə ilə quru yolunu kəsdi. Və bu xalq üçün uzun illərin probleminə çevrildi.

Bu barədə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli yazır ki, 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən İrəvanın ermənilərə güzəştə gedilməsindən sonra ermənilər Naxçıvanı ələ keçirmək üçün daha da fəallaşmışdılar. Həmin zaman Amerika Birləşmiş Ştatlarının bölgədə rolunun artması ermənilərin daha da şirnikləşdirdi. Naxçıvana təzyiqlər artırdı, buna görə də bölgəni ermənilərin işğalından qorumaq üçün əhalinin təşəbbüsü ilə 1918-ci ilin noyabrında Araz-Türk Respublikası yaradıldı. Çox geniş bir ərazini - 8696 kvadrat kilometri, o cümlədən Naxçıvan və Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, Sərdarabadı, Uluxanlını, Vedibasarı, Qəmərlini, Mehrini, Sürməlini əhatə edən və 1 milyon nəfərə yaxın əhalisi olan Araz-Türk Respublikasının paytaxtı Naxçıvan şəhəri idi. Az bir müddət yaşamasına baxmayaraq Araz-Türk Respublikası əhalinin erməni təcavüzünə qarşı səfərbərliyə alınmasında, bölgənin erməni işğalından qorunmasında mühüm rol oynayırdı. Bu işdə əsası daha əvvəllərdən qoyulmuş, Araz-Türk Respublikası tərəfindən isə təşkilatlandırılmış milli qüvvələr - batalyonlar, o cümlədən Kəblə Muxtarın rəhbərlik etdiyi Nehrəm batalyonu, Kəblə Kərimin rəhbərlik etdiyi Cəhri batalyonu, Məhəmmədrza bəyin rəhbərlik etdiyi Dizə batalyonu, Hüseyn Əliyevin rəhbərlik etdiyi Şərur batalyonu, Həsən Şalıverdi oğlunun rəhbərlik etdiyi Şərur-Sədərək kəndlərindəki birliklər, Məşədi Ələsgər ağanın rəhbərlik etdiyi Yengicə qüvvələri, Möhsün Camalovun rəhbərlik etdiyi Kərkər qüvvələri, Fətullah Hüseynov və Kərbəlayi Həbib bəyin başçılığı ilə Cəlilkənd-Zeyvə-Düdəngə kənd qüvvələri, İbrahimxəlil Axundovun rəhbərlik etdiyi Ordubad batalyonu mühüm rol oynamışlar. Bütün bunların sayəsində, əhalinin qüvvəsi ilə Naxçıvan erməni təcavüzündən xilas oldu. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin olundu.

1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını və Naxçıvan Milli Komitəsini ləğv etdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərə inanaraq 23 noyabr 1919-cu ildə Ermənistanla bağlanmış müqavilənin şərtlərinə əsasən öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzuru tutdu və Naxçıvanın Azərbaycandan ayrı düşməsinin əsası qoyuldu. Zəngəzurun bir hissəsinin ermənilər tərəfindən işğal edilməsi Naxçıvan bölgəsinin blokadaya salınması, onun Azərbaycanın əsas hissəsi ilə əlaqələrinin kəsilməsi ilə nəticələndi.

Əzəli və tarixi Azərbaycan torpağı olan, hazırda indiki Ermənistanın cənub-şərqində yerləşən Zəngəzur ərazisi qədim zamanlardan Azərbaycan xalqına məxsus Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən, qədim zamanlardan Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlərin tərkibində olan və əhali tərəfindən Zəngəzur mahalı kimi tanınan bu ərazinin bir hissəsi Xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlığının tərkibində olmuşdur. Mahal ərazisinə daxil olan torpaqlar el qaydası ilə Qarakilsə, Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələrinə bölünmüşdür. Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra digər Azərbaycan torpaqları kimi, əhalisi ancaq Azərbaycan türklərindən ibarət olan Zəngəzura da İrandan və Osmanlı imperiyasından çoxlu erməni köçürülmüş, bununla da ərazidə onların sayı suni surətdə artırılmışdır.

*Ardı Səh. 10*




# Qərbi Azərbaycana

## həsr olunan doğum günü

Əvvəli Səh. 9

Hələ Rusiya imperiyası dağıldıqdan sonra, XIX yüzillik boyu buraya köçürülən və yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ilin martından 1918-ci ilin mayınadək Zəngəzur ərazisində türk-müsəlman əhaliyə qarşı böyük soyqırımlar törətmiş, yüzlərlə yaşayış məskənini dağıtmış, əhalini deportasiya etmişlər. Bu qırğınlar 1918-ci ilin mayın sonlarında Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin yaranmasından sonra da davam etdirilmişdir. Təkcə erməni quldurlarından Andronikin, Njdenin və Dronun dəstələrinin basqınları nəticəsində 1918-ci ildə Zəngəzurun 115 kəndi yerlə-yeksan edilmiş, əhalisinə divan tutulmuşdu. Bu qırğınlar zamanı 3257 kişi, 2776 qadın, 2196 uşaq qətlə yetirilmiş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmiş, 50 mindən çox adam didərgin düşərək Azərbaycanın kəndlərinə pənah gətirmişdi.

Bəli, faktlardan da göründüyü kimi, İrəvanın ermənilərə verilməsi səhvi Zəngəzurun əldən getməsi ilə nəticələnmişdir. Zəngəzurun əldən getməsi isə Naxçıvan üçün illərdən bəri həllini tapa bilməyən problem yaratmışdır. 2020-ci ilin 27 sentyabrında başlayan və 10 noyabrında xalqımızın tarixi Zəfəri ilə bitən İkinci Vətən Müharibəsi ermənilərin 30 il əvvəl işğal etdikləri Qarabağın azadlığı ilə nəticələndi. Düşmən ağ bayraq qaldırıb təslim olduğunu bəyan edəndə Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan 10 noyabr Bəyannaməsində Naxçıvana kommunikasiyaların açılması kimi maddə nəzərdə tutulmuşdu və bunu bir öhdəlik kimi Ermənistan həyata keçirməli idi. Lakin Ermənistan müharibədən ötən iki ildə üzərinə düşən öhdəlikdən hələ də boyun qaçırır, verdiyi sözün üstündə dura bilmir. Çünki onların xisləti yalanlar üzərində qurulub. Yazıqlar düşünə bilmirlər ki, Qarabağı geri qaytaranlar Naxçıvanla əlaqəni də yarada biləcəklər. Onlar istəsələr də, istəməsələr də.

### Qərbi Azərbaycan bizim tarixi torpağımızdır

Prezident cənab İlham Əliyev Qərbi Azərbaycanın tarixi torpaqlarımız olmasını faktlarla əsaslandırdı: Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

Bəli, dövlətimizin başçısının da vurğuladığı kimi, ermənilər əzəli torpaqlarımızdakı tarixi, dini abidələrimizi darmadağın etməklə yanaşı, həm də yer adlarımızı sıradan çıxarmışlar. Qondarma adlar Azərbaycanın tarixi yurdlarına yamaq olaraq yapışdırılmışdır. Həmin adların geri qaytarılması isə o torpaqların azadlığı qədər vacibdir ki, bununla bağlı da dövlətimizin rəhbəri tapşırıqlar vermişdir.

"Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik. Tariximizdə şanlı səhifələr də olub, əfsuslar olsun ki, qara səhifələr də olub",-deyən Prezident cənab İlham Əliyev daha sonra vurğulamışdır: Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, qısamüddətli fəaliyyəti haqqında mən dəfələrlə öz fikirlərimi bildirmişdim. Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdim. Bu, doğrudan da dünya miqyasında, müsəlman aləmində ilk respublika idi, baxmayaraq ki, cəmi iki il yaşadı. Ancaq, eyni zamanda, biz bu tariximizin qara səhifələrini də unutmamalıyıq, ört-basdır etməməliyik. Birincisi, tarixi həqiqət təhrif olunmuş formada təqdim edilməməlidir. İkincisi, bu faciəvi hadisə hamımız üçün dərs olmalıdır.

O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər. Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.

Yəni, görün, cəmi iki il ərzində xalqımızın başına nə qədər böyük bəlalar gətirildi. Əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi. Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan.

Bəli, iki ildə edilən səhvlər bu xalqı 100 ildir ki, böyük çətinliklərlə üz-üzə qoyub. Həm tarixi torpaqlarımız əlimizdən gedib, həm də ölkəmizin bir hissəsi ilə olan əlaqələrimiz. Bütün bunların bərpası üçünsə təbii ki, zaman lazımdır. Çünki biz yenicə böyük və ağır müharibədən çıxmış xalqıq. Əsas məsələ torpaqlarımızın işğaldan azad edilməsi idisə, növbəti məsələ isə Qərbi Azərbaycanla bağlıdır.

### Sınmadıq, əyilmədik, inamımızı itirmədik, güc topladıq, istədiyimizə nail olduq

Keşməkeşli 100 illik tariximizi vərəqləyərkən, sözün həqiqi mənasında, bu xalqın başına gətirilənlər qarşısında heyrət etməmək olmur. Sanki ətrafda hər kəsin məqsədi Azərbaycandan hissələr qoparıb pay vermək, kimlərinsə ürəyini şad etmək, bu xalqı bəlalarla üz-üzə qoymaq, inkişafına, intibahına mane olmaq olub. Lakin biz də zamanla sınmamışıq, əyilməmişik. Qürurlu duruşumuzla, iradəmizlə yeni güc toplamışıq, istədiyimizə nail olmağa çalışmışıq. Bütün bunlara isə 100 ilin son 30 ilində nail ola bilmişik. Ümummilli liderimiz Heydər Əliyevin müstəqilliyimizin dayağı olması, bu xalqa dəstəyi, dövlətimizin başçısı cənab İlham Əliyevin cəsarəti, bacarığı ilə. Ulu öndər torpaqlarımızın işğalını həmişə böyük ürək ağrısı ilə vurğulayır və böyük qətiyyətlə bir gün həmin torpaqlara geri qayıdacağımızı bildirirdi. Prezident cənab İlham Əliyev isə ata vəsiyyətini reallığa çevirən oğul, bu xalqa layiqli rəhbər oldu. Xalq-lider birliyi Azərbaycan tarixində 270 il sonra yenidən torpaq məsələsini gündəmə gətirdi və nəticədə Qarabağımız azad edildi.

Prezident cənab İlham Əliyev: Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni, görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.

Bir tərəfdən, o vəhşilikləri, dağıntıları, qanunsuz məskunlaşmanı etiraf etməyə məcbur oldular, digər tərəfdən yenə də balanslı yanaşaraq işğalçı ilə işğala məruz qalanı necə deyərlər, bir müstəviyə qoydular. Ona görə Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə çatdırılmalıdır. Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.

"Bütövlükdə XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir"-, deyən dövlətimizin başçısı vurğulamışdır: Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik.

Bəli, o gün uzaqda deyil! Çünki bu, doğum gününü daim xalqı ilə birlikdə qeyd edən liderimizin arzusudur. Deməli, ümumilikdə xalqın arzusudur.

***Mətanət Məmmədova***

# Şaxta baba seçərkən nələrə diqqət yetirilməlidir?







**Yeni il şənliyi üçün animatorlar seçərkən mütləq şəkildə araşdırılmalıdır. Xidmətin təsvirini diqqətdə saxlayıb, əvvəllər bu cür tədbirlərdə iştirak edib-etmədiyini yoxlamaq vacib şərtdir. Bəs Şaxta baba, Qarqızı və s kimi animatorlar seçərkən necə diqqətli olmalıyıq?**

SİA mövzu ilə bağlı araşdırma aparıb. Onların müxtəlif yaş qruplardakı uşaqlarla necə işlədiklərinə, tədbiri təşkil etmək və keçirmək üçün hansı metodlardan istifadə etdiklərini öyrənməliyik.

Əbəttə ki, hər kəsin öz təcrübəsi var, lakin bir insanın uşaqlarla necə qarşılıqlı əlaqə quracağını dəqiq başa düşməsi vacibdir. Bunu başqalarının rəylərini oxumaqla xidmətlər haqqında ilk təəssüratınızı formalaşdıra bilərsiniz. Şənliklərə, uşaq məclislərinə kimisə dəvət edərkən uşağın möcüzəyə inamını qırmamaq üçün onun gözləntilərinin reallıqla üst-üstə düşməməsinə imkan verməliyik.

Bir tədbir formatında uşaqlarla necə qarşılıqlı əlaqə quracaqlarını əvvəlcədən animatorlarla müzakirə etmək məqsədə uyğundur. Orta hesabla bayram 25 dəqiqə ilə 2 saat arasında davam edir və aydın mərhələlərə bölünür: tanışlıq, oyunlar, əsas hərəkət, istirahət və istiləşmə üçün oyunlar, kulminasiya, hədiyyələrin təqdimatı və s. Nəzərə almaq lazımdır ki, Şaxta baba ilk dəfə çox kiçik uşaqların yanına gəlirsə, onu Qar Qızla birlikdə dəvət etmək tövsiyə olunur. Bəzən olur ki, körpə uca səsdən qorxa bilir, ancaq Qar Qız təəssüratı yumşaldacaq və bayram əhval-ruhiyyəsini yaradaraq bir növ "nağıl bələdçisi" olacaq.

İl boyu pandemiya müddətində Şaxta baba və Qar qızların sayı əvvəlki illərə nisbətən xeyli azalmışdı. Bu il hansı səviyyədə olacaqları maraq doğurur.

Qeyd edək ki, paytaxtda Şaxta baba və Qar qızla şəkil çəkdirmək istəyən vətəndaşlar iki-üç manat civarında ödəniş edirlər.

Qurumdan qeyd edilib ki, müraciət edənlər əvvəlki illərdəki kimi yoxdur. Əsasən, dekabrın 15-dən sonra müraciətlər başlayayıb. Müraciət olduğu halda rəsmi şəkildə icazələr verilir.

Psixoterapevt Münəvvər Seyidova: "Şaxta baba seçərkən, ilk növbədə, onun uşaqlar ilə davranışına diqqət yetirmək lazımdır, məsələn uşaqlar ilə kontakta girə bilməyən, köbut rəftar edən bir insan heç vaxt Şaxta baba roluna girməməlidir. Eyni zamanda hədiyyələri uşaqlara nə üçün təqdim etdiyini də, vurğulamalıdır. Məsələn, sən bu il əlaçı oldun deyə sənə bu hədiyyəni gətirmişəm ki, səni təbrik edim, bu uşaq üçün motivasiya olacaq ki, yaxşı oxumağa davam etsin. Yəni onların hər hansı müsbət davranışlarının qarşılığında bu hədiyyələri aldıqlarını söyləməlidir. Az yaşlı uşaqlar üçün daha çox inkişafını nəzərdə tutulan oyuncaqlar və oyunlar, ailəvi oyunlar olsa daha yaxşıdır ki, valideynləri ilə səmərəli vaxt keçirə bilsinlər. Eyni zamanda 2-7 yaş arası olan uşaqlar Şaxta babalara daha çox inanırlar, çünki onlar təxəyyülündən daha geniş şəkildə istifadə edirlər və buna görə də müxtəlif peşə rollarında özlərini tez tez sınamağı sevirlər, buna görə müxtəlif peşələrlə bağlı hədiyyələr seçilsə -məsələn:həkim, aşbaz, müəllim və sairə az yaşlı uşaqlara daha maraqlı olar. Elektronik hədiyyələrdən bir az uzaq dursalar daha faydalıdır. Daha çox zehni bacarıqları, sosial davranışlarını inkişaf etdirəcək hədiyyələrə üstünlük verilməlidir".

ARAŞDIRMA

***Havar Şəfiyeva***



"2022-ci il Azərbaycan mediası üçün kifayət qədər yadda qalan hadisələrlə xarakterizə olunur. Bu ilin ən yadda qalan hadisəsi Azərbaycanda "Media haqqında yeni qanun"un qüvvəyə minməsidir". Bu fikirləri Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Media eksperti Müşfiq Ələsgərli "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, 2021-ci ilin dekabrında parlament tərəfindən qəbul olunan "Media haqqında qanun" 2022-ci ilin fevral ayının 8-də Cənab Prezidentin Sərəncamı ilə artıq qüvvəyə minmiş və icraya başlamışdır: "Qanunun qəbul olunması və icrasına başlanılması Azərbaycan mediası üçün kifayət qədər mühümdür, vacibdir və Azərbaycan mediasının peşəkarlaşması, peşəkar medianın imkanlarının genişləndirilməsi həmçinin jurnalistkanın çərçivələrinin bilinməsi üçün vacib bir məqamdır. Bu qanunun qəbul olunması peşəkar media ilə sosial şəbəkə arasındakı fərqləri bir daha təsbit edir və peşəkar xəbər istehsalı ilə məşğul olan yəni jurnalistlərin imkanlarını artırılması üçün şərait yaradır. Bu baxımdan, biz bu qanunun qüvvəyə minməsini icrasının başlamasını həm də Azərbaycanda peşəkar medianın inkişafına verilmiş bir töhfə kimi də qiymətləndirə bilərik. Eyni zamanda, həmin qanuna əsasən bu il Azərbaycanda media reyestri tətbiq olunur. Media reyestrinin tətbiq olunması bu reyestrdə düşən KİV qurumları və jurnalistlər üçün yeni imkanlar yeni şəraitlər yaradır və bu belə deyək ki, ilin ən mühüm hadisələridir. Azərbaycanda bu ildə jurnalistkanı və KİV-in inkişafı üçün dövlət proqramı icra olunub. Azərbaycan KİV subyektlərinə eyni zamanda, jurnalistlərinin sosial iqtisadi maddi durumlarının yaxşılaşdırılması, rifah halının inkişaf etdirilməsi üçün kifayət qədər addımlar atılıb".

M.Ələsgərli bildirdi ki, dövlət Media Agentliyi vasitəsi ilə KİV subyektlərinə və jurnalistlərə kifayət qədər dəstək verib ki, onlar həm peşəkarlıqlarını artırsınlar institutlaşsınlar və inkişaf etsinlər: "Eyni zamanda, bu il büsbütün Azərbaycanda jurnalistlərin peşəkarlığının artırılması üçün keçirilən tədbirlər baxımından yadda qalır, çox saylı konfranslar, seminarlar təlimlər keçirilib ki, bu da jurnalistlər üçün artıq peşəkarlıq kurslarının sistemli bir hala düşdüyünün göstəricisidir. O cümlədən bu il alternativ fikir mənbələrinin alternativ informasiya mənbələrinin inkişaf etməsi baxımdan yadda qalır. Azərbaycanda peşəkar media və KİV subyektləri ilə yanaşı həm də alternativ fikir mənbələri inkişaf etdirilir. Bu baxımdan, biz sosial şəbəkələrin inkişafını qeyd edə bilərik. Bu il Azərbaycanda sosial şəbəkə istifadəçilərinin sayı artıq 5 milyon nəfəri keçib ki, bu da ölkə əhalisinin yarıdan çoxunun artıq sosial şəbəkələrdə sərbəst fəaliyyət göstərməsinin, sərbəst fikir paylaşım etməsinin bir göstəricisi kimi qeyd oluna bilər. Beləliklə 2022-ci ildə həm Azərbaycanda peşəkar media qurumları, KİV subyektləri jurnalistlər eyni zamanda, alternativ fikir mənbələri də kifayət qədər inkişaf ediblər və öz yerlərini mövqelərini möhkəmləndiriblər. Ölkədə həm də jurnalistika sahəsində 2022-ci il həm də qayda qanun yaradılması baxımından yadda qalıb. Həm media reyestrinə düşmək üçün həm də müsabiqələrdə iştirak etmək üçün əmək müqavilələrinin, əmək stajının, əmək münasibətlərinin rəsmiləşdirilməsini tələb olunması imkan verib ki, ölkədə jurnalistika sahəsində əmək münasibətlərinin rəsmiləşdirilməsi işi də qaydaya düşsün. Beləliklə biz 2022-ci ili medianın inistutlaşsı, peşəkarlaşması və imkanlarının artırılması inkişafı baxımından dinamik il kimi qeyd edə bilərik. 2022-ci ildə yadda qalan hadisələrdən biri də Azərbaycanın media subyektləri ilə türkdilli dövlətlərin media subyektləri arasında əlaqələrin inkişaf etdirilməsinin mühüm bir göstəricisi kimi qeyd edə bilərik. Bu dövrdə Azərbaycan mediası ilə Türkiyə mediasının əməkdaşlığının inkişaf etdirilməsi həm də ümumilikdə türk dünyası türk dövlətlər təşkilatına üzv olan dövlətlərin media subyektləri ilə əməkdaşlığın inkişaf etdirilməsi üçün yeni-yeni platformalar, yeni-yeni əməkdaşlıq müqavilələri ortalığa gətirilmişdir bu da Azərbaycanın bir tərəfdən türk dünyası türk dövlətlər təşkilatlarında media subyektlərlə əməkdaşlıq imkanlarını artırır, həm də onların bir növü beynəlxalq əlaqələrin inkişafına töhfə vermiş olur. Hesab edirik ki, bu dinamika ilə inkişaf etməklə Azərbaycan mediası kifayət qədər milli hədəflərə töhfə vermiş olacaq".

# "2022-ci il Azərbaycan mediası üçün yaddaqalan il oldu"

***Gülyana***

# "Ukraynaya elə bir zərbə dəyib ki, ..."

*SİYASİ EKSPERT AÇIQLADI*

"Hazırda Rusiya-Ukrayna müharibəsi sonu görünməz dalana dirənmiş bir proses kimi xarakterizə olunur. Çünki Rusiya Ukraynaya hücuma başlayanda özü bunu xüsusi əməliyyat adlandırıb. Amma faktiki olaraq bu Ukraynanın işğalıdır". Bu sözləri SİA -ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib.

Onun sözlərinə görə, Rusiya belə proqnozlar verirdi ki, biz üç həftəyə məsələni həll edəcəyik: "Amma artıq 10 aydır ki, Rusiya Ukraynada öz istəyinə nail ola bilmir. Düzdür, qismən nail olub. Luqansk və Donetskdə hazırda mövqe dəyişiklikləri baş verir və savaş davam edir. Amma faktiki olaraq bu müharibənin daha böyük anlamı ondan ibarətdir ki, Ukrayna Qərb və Rusiya arasında bir poliqon kimi istifadə olunur. Bəllidir ki, Ukraynada Qərb Rusiya ilə savaşır və müharibə Kollektiv Qərblə Rusiya arasında gedir".

Elşad Məmmədli sözlərinə belə davam edib: "Təəssüflər olsun ki, Ukrayna viran qalıb. Bu fəsadların aradan qaldırılması isə illər alacaq. Ukrayna son 10 ildə sürətlə inkişaf edirdi və turizm ölkəsinə çevrilmişdi. Amma ona elə bir zərbə dəyib ki, özünə gəlməsi üçün 10 ildən çox zaman lazım olacaq. Müharibə nəticəsində xeyli insanlar həlak oldu, ailələr köçdü getdi, milyonlarla insan Avropaya axışdı.

Müharibədə kimin qalib olacağına gəlsək, dəqiq bir proqnoz vermək olmur. Amma hesab etmək olmaz ki, qazanan Rusiya olacaq. Rusiya istədiyi əraziləri özünə birləşdirsə də, bundan sonra Kollektiv Qərb onu rahat buraxmayacaq. İstənilən halda Ukrayna burada əzilən tərəfdir. Gələcəkdə Ukraynanın hansı şəkildə dünyanın dəstəyini alacağı isə başqa mövzudur. Amma Ukrayna poliqon rolunu daşıdığı üçün viran qalmış ölkəyə çevrilib.

Biz Ukraynanın Rusiya ilə sona qədər direşməsini siyasi aspektdən qiymətləndirdikdə, Ukrayna xalqının qəhrəmanlıq nümunəsi göstərdiyi deyə bilərik. Ola bilər ki, bu müharibə illərlə davam etsin".

***Ayşən Vəli***

# Ermənilər tarixi kökü olan azərbaycanlıların qonşusu olmasaydı

Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini həyata keçirərək, saxta tarix formalaşdırmaları ilə dünyada "seçilib", "tanınıb"lar. Dünyanın istənilən bir ölkəsinin qələm əhlindən, siyasətçisindən ermənilərlə bağlı sərt mesaja rast olunması təsadüfi deyil. O qədər iyrənc və qorxuncdurlar ki, milli xüsusiyyətini qısa bir zamanda sezmək olur. Məşhur fars şairi Sədi Şirazinin ermənini yer üzünün ilanı, insanlığın düşməni kimi qələmə verməklə nə qədər haqlı imiş. Bəli, biz erməni kimliyini dünya xalqlarının tanınan şəxsiyyətlərinin dili ilə görürük və belə nümunələr istənilən qədərdir. Bu gün tarixdə baş verən hadisələrin davamı müxtəlif yollarla həyata keçirilir. Eyni siyasətin müasir dövrümüzdə inikasını görürük. Bu fikirlərdəki həqiqət əsaslıdır. Dili hibrit, yəni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilərin ünvanına deyilənlər elə onlara məxsus olan bu "dəyərlər"dən qaynaqlanır. O "xalq"ın əfsuslar olsun ki, qonşusu azərbaycanlılardır. Məğrur, sözünün gücü, əməli, tarixi, irsi olan, dünyanın marağında olan bir dövlətlə qonşu olublar. Amma hərdən düşünürəm ki, ermənilər tarixi kökü olan azərbaycanlıların qonşusu olmasaydılar, necə dünyaya çıxa bilər, mənim mətbəxim, musiqim, dilim, ərazim vardı, - deyə bilərdi. Zaman yerində dayanmır, dəyişir. Yeni meyarlar, yeni baxışlar yaranır. Amma erməni cildi dəyişmir. Tarixə nəzər salaq, bir daha görərik ki, ermənilərin Azərbaycan ərazisinə "təşrif buyurmaları" nə vaxt və necə olub? Qədim İrəvan torpağında necə məskunlaşıblar.



### "İNDİKİ ERMƏNİSTAN ƏRAZİSİNDƏ TARİX BOYU AZƏRBAYCAN XALQI YAŞAYIB"

Bildiyimiz kimi, XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı işğal etməsindən sonra yeni inzibati ərazi bölgüsü aparılmışdır. Bölgü nəticəsində Zəngəzur qəzası Gəncə quberniyasına tabe edilmiş, Sisyan, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın buraya daxil olunmuşdur. Zəngilanın ərazisi Şərqdən Həkəri çayından Mehri dağ silsiləsinə qədər olan ərazini əhatə edir.

1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin köməyi ilə qədim türk torpaqları hesabına ilk dövlətlərini quran ermənilər Zəngəzur qəzasını işğal etmişlər. Bu zaman bolşevik Rusiyasının təkidi ilə Zəngəzur Azərbaycanın əlindən alınaraq Ermənistana birləşdirilmişdir. Bu gün Ermənistan Respublikası adlanan dövlət əsasən tarixi Azərbaycan torpağı olan İrəvan xanlığının ərazisində yaradılmışdır.

"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 24-də



Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərkən bildirib. Ermənilər kütləvi surətdə indi Ermənistan adlanan əraziyə İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra imzalanan Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə əsasən, İran və Türkiyədən köçürülüb gətirilmişdir. Bu ərazi qədim türk-oğuz yurdudur.

### "TARİXİN MÜXTƏLİF VAXTLARINDA BİZİM XALQIMIZ ÖZ DOĞMA TORPAQLARINDAN MƏHRUM EDİLMİŞDİR"

Mənbələrdən məlumdur ki, müxtəlif dövrlərdə İrəvan şəhərinin yerləşdiyi ərazi Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar, çar Rusiyası dövlətlərinin tərkibinə daxil olmuşdur. Yalnız 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir. "Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir.



Biz heç vaxt tariximizi təhrif etməməliyik", - deyə Cənab Prezident bildirib.

Qədimdən yalnız Azərbaycan türklərinin məskun olduqları bu şəhərin adı orta əsr yazılı mənbələrində Rəvan, İrəvan, İrivan kimi qeyd edilmişdir. XIX əsrin əvvəllərində rus qoşunları tərəfindən işğalından sonra şəhərin adı Erivan kimi yazılmış, daha sonralar, XX əsrdə tarixdə ilk dəfə erməni dövlətinin paytaxtına çevrildikdən sonra Yerevan adlandırılmışdır.

### TARİXİ-MEMARLIQ ABİDƏLƏRİNƏ, MADDİ İRSƏ QARŞI MƏDƏNİ SOYQIRIMI

Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq bircə dənə də olsun tarixi-memarlıq abidəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğalından sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışlar. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi. Səyyahlar və salnaməçilər öz əsərlərində İrəvanı tipik müsəlman şəhəri kimi təsvir ediblər.

XX əsrin əvvəllərinədək İrəvan qalası, onun içərisində yerləşən Xan sarayı, Abbas Mirzə məscidi şəhərin tarixi-memarlıq incilərindən hesab olunurdu. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. Çoxsaylı qalalar, qalaşəhərlər, hərbi istehkam obyektləri mövcud olub. Orta əsrlər dövrünə və Rusiya işğalı dövrünə aid ədəbiyyatlarda indiki Ermənistan ərazisində mövcud olmuş və hərbi istehkam xarakteri daşıyan İrəvan qalası, Keçi qalası, Sərdarabad qalası, Talın qalası, Gümrü qalası, Şörəyel qalası haqqında məlumatlar verilir. Adları sadalanan bütün bu qalaları İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra ermənilər tədricən dağıdaraq yer üzündən siliblər. Onların içində tez-tez adı çəkilən qala İrəvan qalasıdır. Mənbələrdə qeyd olunur ki, İrəvan qalasının ruslar tərəfindən işğalından sonra qalanın tərtib edilən çertyojunda göstərilən miqyasa əsasən aparılan hesablamalardan bəlli olur ki, uzunluğu 850 m, eni 790 m olan qala təqribən kvadrat formasında olub, 7 ha ərazini əhatə etmişdir. Qalanın üç qapısı var idi: cənubda Təbriz qapısı, şimalda Şirvan qapısı (yaxud Meydan qapısı) və Körpü qapısı. 1679-cu ildə Meydan qapısı ilə Köhnə şəhər arasında Zəngi çayının üzərində Qırmızı körpü adlanan körpü salınmışdı.

XIX əsrin 30-cu illərində İrəvan qalasındakı 120-dən artıq binada müxtəlif təyinatlı dövlət müəssisələri və təşkilatlar yerləşirdi. 50-ci illərdə qalanın içərisində müxtəlif tikinti işləri aparılmış və təmir-bərpa işləri görülmüşdü. Qalada rus hərbi hissələri və onlarla top saxlanılırdı.İrəvan şəhərində mövcud olmuş mülki memarlıq nümunələrindən ən diqqətçəkəni İrəvan qalasındakı Xan sarayı, yaxud Sərdar sarayı idi. İstər Səfəvilər, istər Nadirşahlıq, istərsə də Qacarlar dövründə İrəvan hakimlərinin, bəylərbəylərinin və xanlarının iqamətgahı İrəvan qalasında olmuşdur. Mütəxəssislərin qə-



naətinə görə, İrəvan Xan sarayı memarlıq forması, biçimi, plan quruluşu, daxili həcminin həlli və bədii tərtibatına görə Şərq memarlığının şah əsərlərindən sayılır. Xan sarayı erməni vandalları tərəfindən Yer üzündən silinsə də, günümüzədək gəlib çatan məlumatlar, arxiv sənədləri, rəsm əsərləri, fotolar İrəvan Xan sarayı kompleksinin tam mənzərəsini yaratmağa imkan verir.

1988-ci ilin fevralında Dağlıq Qarabağda erməni separatizminin baş qaldırmasından sonra İrəvanda fasiləsiz mitinqlər keçirilirdi. Fevralın 23-də erməni quldurları İrəvan şəhərindəki Dəmirbulaq məscidini və M.F.Axundov adına 9 №-li azərbaycanlı orta məktəbin binasını yandırıblar. ABŞ tədqiqatçısı Robert Kullen İrəvana etdiyi səfər haqqında 15 aprel 1991-ci il tarixli yazısında şəhərdəki azərbaycanlılara məxsus olmuş yeganə fəaliyyət göstərən məsciddən - Dəmirbulaq məscidindən bəhs edərək yazırdı ki, bir gecə İrəvanda dostu onu apararaq Qnuni küçəsindəki 22 №-li evin arxasında bir qalaq zibilliyi göstərmişdir. Dostu pıçıltı ilə R.Kullenə söyləmişdi ki, hələ Ermənistanda azərbaycanlılar yaşadığı zaman həmin yerdə onlara məxsus sadə məscid olmuşdur. R.Kullen yazır ki, İrəvanda qırğınlar və azərbaycanlıların şəhərdən qovulması zamanı qonşuluqda yaşayan ermənilər məscidi linglə uçurmuş, sonra isə buldozerlə yerlə bir etdiklərini dostu ona söyləmişdi. Təkcə İrəvan şəhərində deyil, bütövlükdə Ermənistan adlanan və özünü dünyanın sivil ölkəsi kimi beynəlxalq aləmə təqdim etməyə çalışan bir dövlətin ərazisində azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinə, onların maddi irsinə qarşı sözün həqiqi mənasında mədəni soyqırım həyata keçirilmişdir.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

# Müxalifət hələ də formalaşa bilmir

## Niyə dağıdıcı müxalif Xankəndi yolunda deyil, Fəvvarələr meydanında aksiya keçirməyə cəhd edir?



Mövcud reallıq və faktlar ondan ibarətdir ki, üzərindən 30 ildən də artıq vaxt keçməsinə baxmayaraq hələ də dağıdıcı müxalif partiya funksionerləri meydan təfəkküründən, küçə davranışından xilas ola bilməyiblər. 30 ildir ki, dağıdıcı müxalifət başbilənləri məqsədlərinin və istiqamətlərinin nədən ibarət olduğunu dərk etmirlər. Bu da onu deməyə əsas verir ki, Əli Kərimli, İsa Qəmbər, Tofiq Yaqublu, Arif Hacılı, Cəmil Həsənli və digərləri ancaq xarici maraqlı dairələrin sifarişlərinə uyğun fəaliyyət göstərirlər. Düzdür xaricdən aldıqları maliyyə yardımları hesabına əyinbaşlarını və yaşayış durumlarını dəyişiblər, ancaq düşüncə və davranışları 1988-1990-cı illərdə olduğu kimi qalmaqdadır. Misal üçün milli maraqlara qarşı qərəzli mövqe sərgiləyir, dövlətçiliyə qarşı əsassız ittihamlar irəli sürür, xarici maraqlı dairələrin sifarişləri əsasında Bakının mərkəzində icazəsiz aksiyalar keçirməyə cəhdlər göstərirlər. Xaricə satılanların bir prinsipi var, onlar kimi düşünüb, fəaliyyət göstərməyənlər, hakimiyyətə işləyənlərdir. Dəfələrlə müxalif partiya sıralarında elələri olub ki, dövlətçilik maraqlarından çıxış edib, xarici məkrli dairələrlə əlaqələrin dayandırılması tələbini irəli sürüblər. Bu zaman partiya sədrləri tərəfindən ittiham olunub, hakimiyyətə işləməkdə günahlandırılıblar. Bir qədər sonra isə müxtəlif qondarma ittihamlarla partiyadan uzaqlaşdırılıblar. Misal olaraq, Sahib Kərimlini, Elçin Həsənovu, Aydın Əliyevi və digərlərini göstərmək olar. Bu kimi faktlar Əli Kərimli, İsa Qəmbər, Tofiq Yaqublu, Arif Hacılı, Cəmil Həsənli və digərlərlərinin sivil mübarizə metodlarından uzaq olduğunu göstərir. Həm də təsdiq olunur ki, müxalif partiya sədrləri ancaq korporativ maraqlardan çıxış edirlər. Onların Azərbaycanda gedən demokratik proseslərdən, vətəndaş cəmiyyəti quruculuğundan, sivil mübarizə taktikasından bəhrələnmək niyyətləri və istəkləri yoxdur.

### Aydın Əliyev: "Məhkəmədə Əli Kərimlinin qatı diktator olduğunu sübut etdim"

Diqqətçəkən maraqlı məqam ondan ibarətdir ki, bəzən partiya sədrlərinin qəzəbinə tuş gələrək partiyadan uzaqlaşdırılmalarını həzm edib, taleləri ilə barışmayan eks-sıravilər olur. Misal olaraq, AXCP NTK-nın sədri olmuş Aydın Əliyevin Ə.Kərimlinin tələbinə əsasən, partiya sıralarından xaric edilməsini rahatlıqla həzm etməməsini göstərmək olar. A.Əliyev AXCP sıralarından xaric edilməsini partiya nizamnaməsinin tələblərinin kobud şəkildə pozulması kimi qiymətləndirərək, hüquqlarının bərpası iddiası ilə Nəsimi rayon məhkəməsinə müraciət edib. Bu barədə, bizə A.Əliyevin özü məlumat verdi: "Nəsimi rayon məhkəməsinin hakimi Rəşid Səmədovun sədrliyi ilə keçirilən prosesdə iddiam təmin olundu. AXCP sədri Əli Kərimli partiyada sərt diktatura rejimi qurub. Onun antidemokratik hərəkətlərinə etiraz edənləri müxtəlif üsullardan istifadə etməklə partiyadan uzaqlaşdırır. Əli Kərimli qatı diktatordu. O cəbhəçiləri aldadır, xalqımıza və dövlətimizə qarşı xəyanət edir".

Qeyd edək ki, A.Əliyevin vəkili Vasif Mirzəyev məhkəmə prosesində çıxış edərək bildirib ki, AXCP sədri Əli Kərimli Aydın Əliyevin partiya sıralarından kənarlaşdırılması üçün təqdim edilən sənəd əsassız olub: "Həmin sənəddə Rəyasət Heyətində iştirak etmiş şəxslərdən biri olan Hüseynova Solmaz ölkə ərazisində olmayıb. Həm də yığıncaqda iştirak edən şəxslərin bəziləri, ümumiyyətlə, nizamnaməyə əsasən, Rəyasət Heyətinin üzvləri ola bilməzlər. Partiyanın nizamnaməsində göstərilib ki, Rəyasət Heyətinin üzvləri AXCP Ali Məclisinin üzvlərindən seçilməlidir. Amma protokol sənəddə ümumi yığıncağın iştirakçısı olaraq qeyd edilən Fuad Qəhrəmanlı, Gözəl Bayramlı, Məmməd İbrahim qeyri-qanuni fəaliyyət göstərir. Açıq şəkildə görsənir ki, bütün bunlar Əli Kərimlinin göstərişi ilə həyata keçirilib. Nizamnamənin kobud şəkildə pozulduğunu müşahidə edirik. Bu səbəbdən xahiş edirik ki, AXCP Ali Məclisinin Rəyasət Heyətinin ümumi yığıncağının Aydın Əliyevin partiya sıralarından kənarlaşdırılması ilə bağlı qərarı ləğv olunsun və onun AXCP NTK sədri vəzifəsinə bərpa olunması ilə bağlı qətnamə çıxarılsın".

Məhkəmə tərəfində aparılan uzun araşdırmalardan və şahid ifadələrindən sonra hakim Rəşid Səmədov iş üzrə məhkəmə qərarını elan edib. Belə ki, Əliyev Aydın Sədətqulu oğlunun cavabdehlər Azərbaycan Xalq Cəbhəsi Partiyasına və Kərimli Əli Əmirhüseyn oğluna qarşı "Ümumi yığıncağın qərarının ləğv edilməsi, AXCP üzvlüyünə və AXCP Nəzarət Təftiş Komissiyasının sədri vəzifəsinə bərpa olunması" ilə bağlı iddia tələbi təmin olunub. Qərara əsasən, AXCP Ali Məclisinin Rəyasət Heyətinin ümumi yığıncağının 10 iyun 2019-cu il tarixli qərarı ləğv olunub. Bundan əlavə, iddiaçı A.Əliyevin AXCP üzvlüyünə və AXCP Nəzarət Təftiş Komissiyasının sədri vəzifəsinə bərpa olunması qərara alınıb.

### "Əli Kərimli icra və probasiya şöbəsinə gəlib, üzərinə öhdəlik götürdü"

Hikkəsindən və diktator xislətindən dönməyən Ə.Kərimli məhkəmənin qərarını icra etməkdən boyun qaçırır. Bunu bizimlə söhbətində Azərbaycan Xalq Cəbhəsi Partiyasının Nəzarət-Təftiş Komissiyasının keçmiş sədri Aydın Əliyev deyib: "Mən məhkəmənin qərarı ilə AXCP üzvlüyünə bərpa olunsam da, NTK-nın sədrliyinə bərpa olunmağım yubanır. Ə.Kərimli müxtəlif bəhanələrlə mənim Nəzarət-Təftiş Komissiyasının sədrliyinə bərpa olunmağıma əngəllər yaradır. O, yalançı və hiyləgərdir, həm də qatı diktatordu, AXCP-yə özünün şəxsi ofisi kimi baxır. Mənim şikayətim əsasında Nəsimi rayon probasiya və icra şöbəsi Ə.Kərimlini şöbəyə dəvət etdi. O, üzərinə öhdəlik götürdü və öhdəlik məktubunu imzaladı. Lakin yenə də, problemlər yaradır. AXCP-nin nizamnaməsinə görə, həftədə bir dəfə Nəzarət-Təftiş Komissiyasının iclası keçirilməlidir. Lakin Ə.Kərimlinin tapşırığı əsasında iclaslar keçirilmir. Bununla da mənim məhkəmənin qərarı ilə NTK-nın sədrliyinə bərpa olunmağım əngəllənir".

A.Əliyev onu da bildirdi ki, Ə.Kərimlinin nizamnamə pozuntusu törətməsi ilə bağlı yenidən məhkəməyə müraciət edib: "Məhkəmə olacaq. Mən Ə.Kərimlinin diktator olduğunu növbəti dəfə sübut edəcəm. Hər bir cəbhəçiyə də məsləhət görərdim ki, ehtiyatlı olsunlar, Ə.Kərimli qorxulu diktatordur, hər kəsi ləkələyə bilər".

Göründüyü kimi, müxalifət partiya sədrləri öz şəxs maraqlarını hər bir partiya üzvünün mənafeyindən üstün tutur və Azərbaycanın milli maraqlarını zərbə altında qoymaqla "əyləc mexanizmi" qismində çıxış edirlər. Təbii ki, bu cür fəaliyyətlə cəmiyyətdə uğur qazanmaq və siyasi dəstək əldə etmək mümkün deyil. Necə ki, bunun acı nəticəsini müxalif partiyalar yaşamaqdadırlar. Ölkəmizdə keçirilən bütün seçkilərdə müxalifətin rüsvayçı məğlubiyyətlə üzləşməsi cəmiyyətin onlara vurduğu sərt şillədir, ən böyük cəzadır. Buna baxmayaq, onlar seçkilərdə uğur qazana bilməmələrinin səbəblərini elmi-siyasi təhlilini aparmırlar. Ən azı papaqlarını qarşılarına qoyub, secki məğlubiyyətinin səbəblərini müzakirə etmirlər. Bu da növbəti seçkilərdə onların yenidən acınacaqlı məğlubiyyət yaşamalarına gətirib çıxarır.

### AXCP, Müsavat və digər dağıdıcı müxalif partiyalar daim destruktiv fəaliyyətə üstünlük veriblər

Fikir verilsə bir daha aydın olar ki, AXCP, Müsavat və digər dağıdıcı müxalif partiyaları daim destruktiv fəaliyyətə üstünlük veriblər. Hər zaman milli maraqlarımız, dövlət və dövlətçiliyimizə qarşı əks-kampaniya aparıblar. Bu gün bütün dünya azərbaycanlıları, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın haqq səsini dünyaya çatdırmağa çalışır, Qarabağ iqtisadi ərazilərində separatçıların və onların himayədarlarının ifşası istiqamətində müvafiq işlər görülür dağıdıcı müxalifət isə xarici qaranlıq dairələrlə birləşib milli maraqlarımıza ziyan vurmağa cəhdlər göstərir. Bir neçə gün əvvəl məram və məqsədləri anlamayan bir qrup şüvəni başlarına toplayan AXCP, "Milli Şura" və Müsavat funksionerləri Bakının mərkəzi meydanı olan Fəvvarələr meydanında icazəsiz aksiya keçirməyə cəhd göstərdi. Təbii ki, dövlət qurumları ilə razılaşdırılmadığından, aksiya iştirakçıları polis tərəfindən saxlanıldı və onların bir neçəsi cərimələndikdən sonra sərbəst buraxıldı. Müsavat funksioneri və "Milli Şura"nın üzvü Tofiq Yaqublu isə məhkəmənin qərarı ilə 25 gün inzibati cəza aldı. Xatırlatmaq lazımdır ki, aksiyadan öncə şəhər polisinin rəhbərliyi icazəsiz aksiyanın keçirilməsinə imkan verilməyəcəyini bildirmişdir. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov qeyd etmişdir ki, aidiyyəti dövlət qurumları ilə razılaşdırılmamış hər hansı aksiyanın keçirilməsinə cəhd edilərsə, bu, qanunsuz hesab olunacaq və qarşısının alınması üçün müvafiq tədbirlər görüləcək: "Kimliyindən asılı olmayaraq, razılaşdırılmadan aksiya təşkil edənlər qanunsuz aksiyanın iştirakçılarıdır. Ona görə də belə bir aksiyanın keçirilməsinə cəhd edənlərə qarşı da qanunsuz aksiya iştirakçısı kimi tədbir görüləcək".

Sual yaranır, niyə 15 gündür ki, Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyasına dağıdıcı müxalifət dəstək vermir? Nədən aksiyaya qoşulmaq istədiklərini bildirmirlər? Ola bilməzmi müxalif toplum Fəvvarələr meydanında deyil, Xankəndi-Laçın yolunda ermənilərin faydalı qazıntılarımızın talan edilməsinə etiraz olaraq aksiya keçirmək istədiklərini bildirsinlər? Nə mane olur, xaricdən sifarişmi lazımdır? Söz yox ki, xarici qüvvələrin Xankəndi-Laçın yolunda aksiyanın keçirilməsinə qarşıdılar. Bu səbəbdən də Bakıdakı təmsilçiləri olan siyasi və ictimai təşkilatlar susmağa üstünlük verirlər.

### Dağıdıcı müxalif ünsürlər haqq işimizə əngəllər yaratmağa, milli varlığımız uğrunda savaşımıza kölgə salmağa çalışırlar

Məlum olduğu kimi, 15 gündür ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda QHT-lərin, ekoloqların, könüllülərin və digər təbəqələrdən olan insanların iştirakı ilə etiraz aksiyası keçirilir. Aksiya iştirakçılarının tələbləri haqlı və əsaslıdır. Azərbaycanın suveren ərazilərində sərvətlərimizin talan edilməsinə son qoyulmalıdır. Təbii ki, Rusiyalı sülhməramlılarının erməni separatçılarının və onların himayədarlarının talançılıqlarına göz yumması təəssüf doğurur. Azərbaycan fəalları etiraz aksiyası ilə bir daha dünyanın diqqətini Qarabağa yönəldir, ölkəmizə haqq-ədalət tələb edir. Bütün dünya azərbaycanlıları, diaspor təşkilatları, dost dövlətlərin vətəndaşları Xankəndi-Laçın yolunda keçirilən aksiyaya bu və digər formada dəstəklərini nümayiş etdirdikləri halda dağıdıcı müxalif ünsürlər haqq işimizə əngəllər yaratmağa, milli varlığımız uğrunda savaşımıza kölgə salmağa çalışırlar. Belə siyasi partiyanın mövcudluğuna son qoyulmalıdır. Müvafiq dövlət qurumları təcili tədbirlər görməli və dövlət maraqlarına zidd fəaliyyət yolu tutan partiyaların, o cümlədən AXCP-nin, Müsavatın və digər siyasi və ictimai təşkilatların dövlət qeydiyyatını ləğv etməlidir.

**İ.ƏLİYEV**






## Bakcell jurnalistlər üçün seminar keçirib

Bakcell şirkəti jurnalistlər və blogerlər üçün "Mobil telekommunikasiya: son nailiyyətlər və yeni texnologiyalar" mövzusunda iki günlük seminar təşkil edib. Mobil rabitəyə həsr olunmuş bu ənənəvi seminarın əsas məqsədi telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, rəqəmsallaşdırma, innovasiyalar və son tendensiyalar barədə mətbuat nümayəndələrinin və blogerlərin məlumatlılığını artırmaqdır. Tədbirdə ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-dan çox jurnalist və bloger iştirak edib.

Bakcell əməkdaşlarının iştirakı ilə seminar çərçivəsində "eSIM texnologiyası", "B2B ekosistemi və onun bazara təsiri", "VoLTE texnologiyası", "Mobil rabitə şəbəkəsinin iş prinsipi", "Qarabağda Bakcell şəbəkəsinin qurulması və genişlənməsi", "Qlobal telekommunikasiya trendləri: süni intellekt", "Korporativ sosial məsuliyyət strategiyası və onun cəmiyyətə faydası" kimi mövzular üzrə təqdimatlar və interaktiv sessiyalar keçirilib. Şirkət nümayəndələri jurnalistlərin telekommunikasiya sənayesi və yeni texnologiyalara aid suallarını cavablandırıb, fikir mübadiləri və müzakirələr aparıblar.

Qeyd edək ki, Bakcell 2015-ci ildən başlayaraq hər il davamlı olaraq mətbuat üçün mobil telekommunikasiyaya həsr olunmuş seminarlar təşkil edir.

TƏRS BAXIŞ+ÖZƏL

# İranı ”qaşındıran” nədir?

## Başıəmmaməlilərin hərbi xuntaçısı yenidən və dolayı vasitələrlə məhz Azərbaycana tərəf eyham vurub










**Görünür, Tehran rejimi hələ də dinc dayanmaq fikrində deyil və yenidən öz bəlli maraqlarını realizə etmək məqsədi ilə əsassız ittihamlarını bu və ya digər şəkildə, yaxud dolayısı ilə Azərbaycan tərəfə yönəltməyə cəhdlər göstərir. Məsələn, bu günlərdə İran silahlı qüvvələrinin baş qərargah rəisi Məhəmməd Baqeri deyib: ”Biz ölkəmizə və mənafeyimizə qarşı hər bir təcavüzə qətiyyətlə cavab verəcəyik. Bu məsələdə heç bir tərəddüdümüz yoxdur. Həm gücümüz var, həm də iradəmiz. Bundan əlavə, hər hansı ölkənin ”mənim xəbərim yoxdur və ya icazə verməmişəm ya vermişəm” deməsindən asılı olmayaraq, İslam respublikasına hücumun həyata keçirildiyi başlanğıc yeri olarsa, həmin başlanğıc yer də İranın ağır və dağıdıcı hücumuna məruz qalacaq!”**

Söz yox ki, başıəmmaməlilərin hərbi xuntaçısı dolayı vasitələrlə məhz Azərbaycana tərəf eyham vurur, ən əsası isə rəsmi Bakının beynəlxalq müstəvidə müstəqil və qətiyyətli siyasətinə qarşı lüzumsuz, təxribatçı fikirlərini önə sürməsi ilə ölkəmizin dost və strateji partnyoru olan İsrail dövləti ilə münasibətlərindən ”qaşınmaya” məruz qaldığını nümayiş etdirir.

### Tehranda oturan və tez-tez hədələyici bəyanatlar verən mollakratiya rejiminin başbilənlərinin davranışları hələ də anlaşılmır

Halbuki, Azərbaycan nəinki Cənubi Qafqaz regionunda, ümumiyyətlə, dünyada sülh çağırışçısı olaraq bu gün də öz sözünü deməkdədir. O cümlədən, Azərbaycan öz qonşuları ilə də eyni siyasətini inkişaf etdirmək marağında olduğunu ən ali səviyyədə və dəfələrlə (!) bəyan edib.

Və əgər bu faktlar varsa, mövcuddursa, Tehranda oturan və tez-tez hədələyici bəyanatlar verən mollakratiya rejiminin başbilənlərinin davranışları hələ də anlaşılmır. Məgər öz torpaqlarını işğaldan azad etmək, bərpa etmək iranlı teokratçılıq rejimini niyə bu qədər narahat edir? Bundan yetişdirdiyi narkotiklərini bir daha Azərbaycanın ərazisindən tranzit olaraq keçirə bilməyəcəyinə görəmi? Qarabağda narkotik plantasiyaları əkib-becərə bilməyəcəyinə görəmi? Nəyə görə?! Digər tərəfdən, Bakı Tehrana məscidləri, dini ibadətgahları, müsəlman qəbirlərini, pir və ocaqlarını məhv edən, təhqirlərə məruz qoyan Ermənistanla isti, qardaşlıq münasibətlərini nəyə görə həddən ziyadə şəkildə inkişaf etdirməsi ilə bağlı haqlı sualları ünvanlayanda qarşı tərəf bunu özünün ”müstəqil siyasəti” ilə əlaqələndirir (?!)

### ”Col.co.il” saytı: ”İranlı təbliğatçılar Azərbaycanı ”sionist quruluş” adlandırırlar və bunu televiziyalarında dövr etdirirlər, üstəlik iddia edirlər ki, Yerusəlimin (Qüdsün) ələ keçirilməsi Bakının üzərindən keçir”

Beləliklə, faktlar ortadadır və bu xüsusda daha bir maraqlı faktı qeyd edə bilərik. Misal üçün, dost İsrailin ”Col.co.il” saytı (XABAD - Ümumdünya yəhudi hərəkatının qeyri-rəsmi ruporu) yazıb - SİTAT: ”Təəccüblüdür ki, xristian Ermənistan İranın müttəfiqidir, Azərbaycan isə İsraillə münasibətlərini strateji partnyorluğa qədər inkişaf etdirir”.

Məqalədə xüsusi olaraq vurğulanır ki, inanclı və dindar yəhudi müvafiq geyimi ilə Azərbaycan küçələrində rahat qaydada gəzə bilirsə, Azərbaycanla düşmən olan ölkədə (yəni Ermənistanda) antisemit karikaturalar yayılır ki, onlar İranda da dərc edilirlər.

Daha bir maraqlı məqam. ”İranlı təbliğatçılar Azərbaycanı ”sionist quruluş” adlandırırlar və bunu televiziyalarında dövr etdirirlər, üstəlik iddia edirlər ki, Yerusəlimin (Qüdsün) ələ keçirilməsi Bakının üzərindən keçir”, deyə adıçəkilən İsrail saytı yazır. Yazır və əslində həqiqəti üzə çıxarır - müsəlmançılıq pərdəsi altında məlum məqsədli oyunlarını oynamağa cəhd edən İran əslində özünün kirli ideyalarını realizə etməkdən ötrü xristianlığın çoxsaylı konfensiyaları arasında özünü ayrıca kilsə (Qriqorian) elan edən Ermənistan adlı şarlatanla qardaşlaşır. Təkcə bu fakt özü-özlüyündə Tehran rejiminin reallıqda islama, müsəlmançılığa deyil, məhz və məhz Şeytana xidmət etdiyini kifayət qədər isbatlayır!

*Rövşən RƏSULOV*



MƏTANƏT

# Tiktok”: verdikləri, yoxsa aldıqları çoxdur?

**Sosial şəbəkələr həyatımıza daxil oldu-olmadı, onsuz da bizdə bizlik qalmadı. Dəyişdik, ”müasirləşdik”, ”yeniliklərə” boyun əyməli olduq, keçmişi unutmağa başladıq, hətta bəyənmədik, boş vaxtımız qəhət oldu, çünki kompüterlərin qabağından ta durmadıq. Telefonları əlimizdən yerə qoymadıq. Kitab oxumaq unuduldu, yerini sosial şəbəkələrdə lazımlı-lazımsız əyləncələr aldı. Qohum-qardaşa qonaq getmək unuduldu. Çünki sosial şəbəkələr bizi özünə elə bağladı ki, bütün bunları həyatımızın ikici planına çevirdik. Xəstələrimizi telefonda soruşduq. Yaşlılarımızdan telefonda xəbər bildik. Ölənlərimiz üçün telefonda başsağlığı verdik. Bayramlaşmaları telefonla etdik. Sosial şəbəkələr bizi bir-birimizə göstərdi, görüntülü danışdıq. Ta kiminsə evinə getməyə lüzum qalmadı.**

Günlər ömrümüzdən ayları bir-bir qoparıb il edib arxivə verdikcə sosial şəbəkələr daha da müasirləşdi, onlarla yenisi yarandı və yarandıqca da biz bizlikdən daha çox çıxdıq. Olduq özgəsi. Günlərin bir günü həyatımıza ”Tiktok” daxil olanda isə bütün sosial şəbəkələr kimi, ona da sevindik. Üstünlüklərini vurğuladıq, həvəsləndirmələrinə boyun əydik, əyləncələrinə aludə olduq. Ümumilikdə isə ”Tiktok”a vaxtımızı verdik. Bir də baxdıq ki, nə? Biz hardayıq? Biz nə edirik? Biz nələri paylaşırıq? Biz nələri müzakirə edirik?

Baxdıq ki, biz utanmağın daşını çoxdan atmışıq. Burada elə şeylər paylaşırıq ki, İlahi-pərvərdigara, gözlülər olsun, görməsin. Ta bunlar haqqında danışmaq olmaz. Çünki hələ də utanan adamlar mövcuddur. Buna da minlərcə dəfə şükürlər olsun.

Baxdıq ki, cavan-cavan oğlanlarımız, həm də ki, boylu-buxunlu, yaraşıqlı, burada küçənin, məhəllənin ortasında rəqs edirlər, utanmadan, qısılmadan. Dedik görən bunlar niyə belə edirlər, dedilər ki, məşhur olmaq istəyirlər. Xəyalımızda igidlərimiz, şəhidlərimiz, qazilərimiz canlandı. Düşündük ki, belə oğullarımız da var, beləleri də.

Baxdıq ki, nəvə nənəsini söhbətə tutub onun şirin, yeri gələndə zarafatyana söhbətlərini çəkib burada paylaşır, bütün dünya da tamaşa edir. Sanki nəvə nənəsini lağa qoyduğunu bütün dünyaya reklam edir. Ana övladını çəkir, paylaşır, onu söhbətə tutur, uşaq isə yaşınauyğun olmayan tərzdə danışaraq uşaqlığı təhqir edir. Valideyn isə bunu inkişafın, müasirliyin təntənəsi kimi paylaşır...

Baxdıq ki, həyat yoldaşından ayrılan, qayınanası ilə yola getməyən, ailə problemləri ilə qarşılaşan, ərinin qazancına qane olmayan qadınlarımız ”Tiktok qəhrəmanına” çevriliblər. Şəxsi problemlərini, söz-sirrlərini açıb dünyaya bəyan edirlər. Hər kəs də bir cür münasibətlə onlara rəy yazır. Mini qızışdırır, biri ”ar olsun”,- deyir. Lakin minlər birlərdən çox olduğu üçün adamı daha da qızışır, qızışdıqca da həddini aşır. Başlayır çoxseriyalı filmlər kimi növbəti hissələri çəkib, danışıb paylaşmağa.

Bu ”Tiktok” yarandı-yaranmadı, bizdən çox şeylər aldı. Fərqində olanlar yəqin ki var. Bir də ki, ”Tiktok, Tiktok” da deyirik. ”Tiktok” nə etsin axı. O, bir sosial şəbəkədir. Dayanıb yerində. Dil açıb danışmır, camaata ”gəl, burada özünü biabır elə” demir, ”söz-söhbətini aç burada danış” demir, ”video paylaşıb özünü biabır eləmə” demir. ”Tiktok”da çox yaxşı mənada paylaşmalar var ki, informasiyanı artırır, öyrədir, xəbərdar edir, arxivləşir.

”Tiktok” dayanıb yerində, nə edir insanlar edir. Ümumilikdə həm yaxşıları, həm yaxşı olmayanları fonunda ”Tiktok”un bu gün bizdən aldıqları verdiklərindən dəfələrlə çoxdur. Bu gün nə qədər yalan, qeyri-rəsmi xəbərlər varsa, hamısı ”Tiktok”dan ətrafa yayılır. Nə qədər lazımsız-lüzumsuz söhbətlər, videolar var, hamısı ”Tiktok”da edilir, göstərilir. Biz nə edirik, hələ üstəlik götürüb həmin yalanları və lüzumsuzları digər sosial şəbəkələrdə də paylaşırıq. İnsanların beynini zəhərləyirik, yetişməkdə olan nəslin tərbiyə istiqamətini dəyişdiririk.

Elə bu səbəbdən də gəlin, barı övladlarımızı ”Tiktok”dan qoruyaq. Ağlımız nə kəsir, onu etməyək. Bir düşünək ki, bu yalan xəbər, lüzumsuz söhbət, əxlaqsığmayan videolar bizim hansı dəyərlərimizi əlimizdən alır. Gəlin özümüzə bir az yazığımız gəlsin. ”Tiktok”un bizdən aldıqlarının yerini verdiklərinin doldura bilməyəcəyini bir an da unutmayaq, gec olsa da. Bəlkə nələri isə qaytara bilərik...

# Yeni il kimin bayramıdır?



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*



Hər Yeni il bayramı gələndə cəmiyyətdə, mətbuatda, sosial şəbəkələrdə müzakirələr baş alıb gedir. Millətçilər və dinçilər başlayırlar ki, bəs bu xristianlıq bayramıdır, bizə yaddır, niyə onu qeyd etməliyik filan. Çoxları belə cavab verir ki, nə olsun xristianlığın bayramıdır, il dəyişir, bütün dünyada qeyd olunur, biz də qeyd etməliyik. Təbii ki, haqlıdırlar. İlin dəyişməsi bayram kimi qeyd oluna bilər və burada milli, qeyri-milli nəsə axtarmaq axmaqlıq olardı.

Lakin Qış bayramının, Şaxta babanın, Yolka (Yol ağacı) bəzəmək ənənəsinin bizim çox qədim köklərimizdən gəldiyini bilsəydilər, cavabları daha sanballı olardı deyə bu kiçik məqalədə məsələyə bir az aydınlıq gətirməyə çalışacağam.



Qış bayramı haqda qədim hind, Çin, Şumer, Misir mədəniyyətlərində məlumatlar var. Şaxta Baba və Yolka ilə bağlı ən qədim məlumatlar 5 min il tarixi olan Şumer mətnlərində var. Eyni dövrə aid hindlilərə məxsus müqəddəs dinifəlsəfi biliklər toplusu olan Vedalarda da Qış bayramı haqda məlumatlar var.

İstedadlı qələm dostumuz, araşdırmaçı jurnalist Azərbaycan Yazıçılar Birliyinin və Rusiya Jurnalistlər Birliyinin üzvü Əliş Əvəzin bu haqda maraqlı tədqiqatı var. Araşdırmaçı qədim mənbələrə dayanaraq, yazır ki, qədim türklərin ən böyük bayramı dekabrın 25-nə düşən "Açı" ("acı") suyu" bayramı idi. Bu gün içərisinə açı (xaç) salınmış su ilə yuyunub təmizlənmək çox vacib sayılırdı ki, bu da Ulu Tanrıya (Tanrı xana) biətin ifadəsi idi. (Qeyd etmək lazımdır ki, bərabərtərəfli xaç qədim türk, Şumer, Misir və hind mədəniyyətlərində əbədiyyəti simvolizə edən müqəddəs işarə idi).

Həmin gün hər kəs evə müqəddəs sayılan, Tanrının əbədilik rəmzi olan şam və ya küknar budağı gətirməli idi. Həmişəyaşıl olması səbəbilə Yolkanın dirilik, əbədilik simvolu kimi müqəddəsləşdirilməsi tarixi isə qədim türklərdə hələ Tanrıçılıq dinindən təxminən 3 min il əvvələ gedib çıxır. Bu ağacın konus formalı olmasından dolayı onu bəzəmək Tanrıya qovuşmaq istəyinin nəticəsidir. Yəni, bunun mahiyyəti Tanrıya gedən yolu bəzəməkdir, ən zirvədəki ulduz isə Yaradanı simvolizə edir.

Bu ənənələr Tanrının daha qədim adı olan Yersu ilə bağlıdır. Yolkanın evə gətirilməsi Yersunun ərməğanı hesab edilirdi. İnama görə, Tanrı Yersunun igamətgahı yerin təkində və mərkəzində yerləşib. Burada, Dünya Ağacının rəmzi olan nəhəng, müqəddəs yolka (şam) ağacı bitib. Bu ağacın altında onun hamisi sayılan, əyninə uzun xalat geymiş ağ saqqallı bir qoca əyləşib. Bu, Ülgən (Ölgən) Babadır.

Ülgən Baba çox xeyirxah qocadır, ildə bir dəfə qış vaxtı yerin üstünə çıxıb adamlara qonaq gəlir, böyük torbasında uşaqlara hədiyyələr və Yolka gətirir. Uşaqlar və böyüklər həmin yolkanın ətrafında dövrə vuraraq səhərə qədər nəğmə oxuyub şənlənirlər. Yolka o dərəcədə müqəddəs sayılırdı ki, hətta tanrıçılıq dövründə ölən adamların qəbirlərini şam budaqcıqları ilə döşəyirdilər. İndi də bizim qəbiristanlıqlar şam ağacları ilə doludur.



Şam sözünün qədim dilimizdə Tanrının adlarından biri olması da çox şeydən xəbər verir. Azərbaycanda Şamaxı, Şə(a)mkir, Şamlıq kimi toponimlərin də Tanrının şərəfinə verildiyi aydın olur. Şaman sözünün etimologiyasının kökündə də bu dayanır.

Yazımızdan aydın olduğu kimi, xristianlıqdan azı 3 min əvvələ aid olan bu bayram İsa peyğəmbərin doğuluşu və ya təqvim ilinin başlaması ilə bağlı deyil, konkret olaraq qədim mifoloji dini görüşlərimizə dayanır.

Miladi Yeni ilini, Qış bayramını Şaxta (Ülgən) Baba və Yolka (Şam) atributları ilə əksər müsəlman xalqlardan fərqli olaraq bütün türkdilli xalqların (müsəlman, xristian, buddist inanclı) geniş qeyd etməsi böyük tarixi təbəddülatlar yaşamış qədim sivilizasiyasının gen yaddaşından qaynaqlanır.

Kəsəsi, radikal millətçilərin bu bayramı keçirməsində heç problem qalmadı, radikal dinçilərə isə nəsə izah etməyin xeyri yoxdur, onlar ərəblərə məxsus olanlar xaric bütün digər xalqların mədəniyyət elementlərini inkar edirlər. Dinçilər bəşəriyyətin ən qədim bayramı olan Novruz bayramının da əleyhinə çıxırlar. Halbuki, bu zəngin bayram onu qeyd edən xalqın qədim və yüksək mədəniyyətini göstərən əsas faktlardandır.



Unudulmuş bayramlarımızdan biri olan Xvarna yeni eradan bir neçə min əvvəldən Qafqazdan Çinədək ərazilərdə yaşayan xalqlar tərəfindən keçirilərmiş. Qədim insanlar Odun vasitəsilə Yaradana bu nemətlərdən qansız qurbanlar verərək torpaqdan əldə etdikləri nemətlərə görə Ona minnətdarlığını ifadə edərlərmiş. İndiki təqvimlə bu bərəkət və bolluq bayramı oktyabrın 8-ə düşür. Təəssüf ki, belə qədim və gözəl bayramımızı bərpa etmirik.

Onu da qeyd etmək lazımdır ki, zəngin və qədim mədəniyyət elementi olan bayramlar cəmiyyətə böyük planda müsbət enerji verən mərasimlərdir. Alimlərin və psixoloqların rəyinə görə, kütləvi şənliklər və bayramlar cəmiyyətə xeyli pozitiv enerji yükləyir və xeyli müddət bunun təsiri insanların psixologiyasında davranışında özünü əks etdirir. Onsuz da tariximiz faciələr, matəmlərlə doludur, olan qalan bir-iki bayramımızın da ləğv edilməsi arzusunda olanları anlamaq çətindir.

Xülasə sözüm ondadır ki, qədimlərdə bizim olan, sonradan başqalarına təhvil verib imtina etdiyimiz mədəniyyət elementlərini onlardan geri almaq əvəzinə öz kökümüzdən çıxarıb yenidən sahiblənmək lazımdır. Milli və bəşəri Bayramınız mübarək!

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
28 dekabr
2022-ci il

# Bu il 207 uşaq övladlığa verilib



“1 noyabr 2019-cu ildən etibarən ümumilikdə 355 uşaq övladlığa verilib. Onlardan 207 nəfəri bu il övladlığa verilən uşaqlardır. Paralel olaraq himayədar ailə institunun formalaşdırılması istiqamətində də işlər aparılır”. SİA xəbər verir ki, bu sözləri Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov mətbuat konfransında bildirib. Onun sözlərinə görə, sosial layihələr çərçivəsində 2022-ci il ərzində 25 rayon və şəhəri əhatə edən sosial reabilitasiya mərkəzlərində 2500 nəfər 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə, günərzi qayğı mərkəzlərində isə 1350 şəxsə xidmət göstərilib”.

*Səbinə Hüseyni*

# Kiber hücumların qarşısı necə alınmalıdır?



**TEXNOLOQ ŞƏRH ETDİ**



**“Kiber təhlükəsizlik informasiyanın qorunması, xüsusən rəqəmsal platformalar vasitəsi ilə insanların şəxsi məlumatlarının oğurlanması mövzuları son vaxtların ən önəmli mövzularındandır”. Bu sözləri SİA-ya açıqlamasında texnoloq Orxan Rzayev deyib.**

Onun sözlərinə görə, bu istiqamətdə ciddi maarifləndirmə işləri aparılmalıdır. Məsələn sosial şəbəkə hesablarının oğurlanması bir neçə məşhur problemdən sonra baş verir. Hansı ki, bir çoxlarımızın qarşısına çıxır. İstifadəçilər sosial mediada paylaşım edirlər, ”mən 2023-cü ildən nə qazanacam”, ”hansı məşhur şəxsə oxşayuram”, ”2023-də məni nə gözləyir”. Bunun kimi maraqlı görsənən paylaşımlar var ki, orada insanlar öz profilini daxil edir və bunun da nəticəsi olaraq onun şəxsi məlumatlarını asanlıqla əldə etmək olur. Bu tipli mobil və ya veb tətbiqlərin əksəriyyəti fırıldaqçılıq xarakterlidir. Yəni bu tipli tətbiqlər olduqca təhlükəlidir. İnsanlar o tətbiqdən istifadə etmək üçün öz şəkillərini və ya məlumatlarını, sosial şəbəkə vasitələri ilə öz şifrələrini daxil edirlər və məlumat vermiş olurlar. Belə olduqda isə bu platforma əgər təhlükəli xarakter daşıyırsa onların məlumatları avtomatik olaraq oğurlana bilir. Bundan sonra onların hesabına daxil olunur, onların şifrələri və şəxsi məlumatlar ələ keçirilir. Bu tipli ilk görünüşdən maraqlı olan tətbiqlər və platfotmalar gördükdə mümkün qədər bunlardan uzaq durmaq lazımdır”.

Texnoloq fikrlərinə davam edərək bildirib ki, digər bir kiber problem isə insanların kart məlumatlarının oğurlanması və onlardan pulların çəkilməsidir. ”Bununla bağlı ən məşhur hadisə budur ki, insanlar kimdənsə ödəniş almaq istəyəndə qarşı tərəfə kart məlumatını göndərirlər. Belə olan halda onlar həm 16 rəqəmli kodu, həm də kartın bitmə vaxtı olan kodu yəni ayı və ili göndərirlər. Bu çox yanlış bir haldır. Çünki bir şəxsə pul ötürmək üçün yalnız kartın 16 rəqəmli kodunu bilmək kifayət edir. Bununla da karta pul göndərmək olur və ay və il olan koda ehtiyac olmur. Ancaq



bəzi şəxslərə hətta deyilir ki, kartın arxasındakı 3 rəqəmli kodu da göndərin. Bu da çox yanlış bir addımdır. Məlumatsızlıqdan bəzi şəxslər bunu edir və sonda kartlarında olan ödənişlər birdən-birə silinir. Düzdür bəzi banklar məcburi şəkildə, bəzi şəxslər özləri təhlükəsizlik tədbirlərini gücləndirir deyə, ödəniş etmək istəyəndə kart sahibinin nömrəsinə kod gəldiyi üçün xakerlərin pulu çıxarmağı çətinləşir. Amma bəzi saytlar var ki, orada 16 rəqəmli kodu və ay/il məlumatlsrını daxil etmək kifayət edir ki, o kartdan ödəniş olunsun. Bu kimi hadisələrin qarşısını almaq üçün insanlar son dərəcə özlərini qorumalı və ehtiyat etməlidirlər”.

*Ziya Hikmət oğlu*

# Balıq qoxusunun qarşısını almaq üçün BUNLARI EDİN

Balığın sağlamlıq baxımından əhəmiyyəti çox böyükdür və özünəməxsus dadı ilə əvəzolunmazdır. Bununla yanaşı, balığın qoxusu da evdən çətinliklə gedir. SİA xarici mətbuata istinadən xəbər verir ki, evdən balıq qoxusunu aparmaq üçün bəzi



üsulları bilmək lazımdır. Balıqlarınızı bişirərkən mətbəxin və digər otaqların qapılarını bağladığınızdan əmin olun. Beləliklə, balıq qoxusunun digər otaqlara keçməsinin qarşısını ala bilərsiniz.

Balıqları qovurarkən sirkə ilə suyu ayrıca qazanda qaynadıb qoxusunun qarşısını ala bilərsiniz. Bundan əlavə, balıqları qızartdıqdan sonra qazana sirkə, su, limon, darçın, mixək və dəfnə yarpağı əlavə edib qaynadın. Bu aromatik şeylər balıq qoxusuna üstün gələcək və evinizə nüfuz etməsinin qarşısını alacaq.

Eyni zamanda, balıqları bişirdikdən sonra qazanda vanili qaynadıb balıq qoxusunun qarşısını ala bilərsiniz. Vanil qoxusu həm mətbəxinizi, həm də evinizi bürüyəcək. Balıqlarınızı qovurarkən tavaya bir neçə budaq cəfəri əlavə edərək də balığın iyinin qarşısını ala bilərsiniz.

*Ləman Əlizadə*

# Bakı Beynəlxalq Avtovağzalı bayram günlərində necə çalışacaq?

“Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar əhalinin nəqliyyat xidmətləri ilə keyfiyyətli və davamlı şəkildə təmin edilməsi üçün 28 dekabr tarixindən 5 yanvar 2023-cü il tarixinədək respublikanın avtovağzal və avtostansiyaları gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) şəhərlərarası, rayonlararası və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən fasiləsiz və təhlükəsiz hərəkətin təmin edilməsi, təsdiq olunmuş cədvəl üzrə hərəkət qrafiklərinə ciddi riayət edilməsi ilə bağlı bütün avtovağzal və avtostansiyalara müvafiq tapşırıqlar verib”. Bu barədə Bakı Beynəlxalq Avtovağzalın mətbuat xidmətindən SİA-ya məlumat verilib.




Bakı Beynəlxalq Avtovağzal Kompleksində bayram günlərində sərnişin axınına uyğun olaraq marşrutlar üzrə xətlərə buraxılan avtobusların intervalına, sürücülərin sərnişindaşımada təhlükəsizlik qaydalarına əməl etmələrinə xüsusi nəzarət olunacaq.

Sərnişin sıxlığının qarşısını almaq üçün xəttə lazımi sayda əlavə avtobus buraxılması təmin ediləcək.

Vətəndaşlar biletləri ”biletim.az” portalından onlayn qaydada, həmçinin avtovağzalların gündəlik və qabaqcadan satış kassalarından əldə edə bilərlər.

*Banuçiçək Hüseynli*

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**